

> “İndiki Laçın şəhəri qədim Abdallar kəndinin ərazisidir. Yeri bircə qarış qazanda yeni eradan əvvəl III minilliyə - tunc dövrünə aid əşyalar çıxır. Keçmişdə çörək bişirilən “pekarnya”, 1 saylı məktəbin tikildiyi yer, Poçtun, köhnə Raykom binasının ətrafı - qatbaqat qədim tarixi nişanələrlə doludur...”

Solmaz Məhərrəmova

**Tarix elmləri doktoru, professor Solmaz Məhərrəmova Laçın Rayon Tarix-diyarşünaslıq Muzeyinin direktoru, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş elmi işçisidir. Müxtəlif ölkələrdə 150-dən çox elmi məqaləsi, üç monoqrafiyası dərc edilib. "Qarabağın etnoqrafiyası" adlı fundamental əsərin və üç cildlik "Azərbaycan etnoqrafiyası"nın əsas müəlliflərindəndir.**

1992-ci il, mayın əvvəli. Laçın bir neçə gündən sonra işğala məruz qalacaq. Rayonda nə bir maşın var, nə uşaq qalıb, nə də bir qadın. Təkcə muzeyin direktoru Solmaz xanım çıxa bilmir Laçından. 10 mindən artıq nadir eksponatı olan zəngin fondu qoyub hara gedəydi, necə gedəydi?.. "Mart ayında Bakıda Mədəniyyət naziri ilə görüşmüşdüm, demişdim ki, Laçında vəziyyət pisdir, muzeyi təcili köçürmək lazımdır. Amma o zaman nazir P. Bülbüloğlu heç bir təhlükə olmadığını, eksponatlar çıxarılarsa, əhali arasında panika yaranacağını dedi. Mən də ərizəmi yazdım. Bu cinayətə ortaq olmaq istəmədim..." Solmaz xanım neçə il sonra, muzeyi talamış ermənilərin Londonda hərraca çıxardıqları qiymətli eksponatlardan ürək ağrısı ilə danışır.Axı bu muzeyin hər əşyası Laçının qədim tarixindən, mədəniyyətindən xəbər verirdi və nə əzablar bahasına toplanmışdı... Sonralar, Solmaz xanım Tarix-diyarşünaslıq Muzeyinin keçmiş işçilərini yenidən bir yerə yığıb, çox böyük çətinliklər bahasına Nərimanov rayonundakı texniki peşə məktəbində bir otaq alaraq yenə ekspozisiya qurur. Təkbaşına, Ağcabədidə, Qaxda, Ağdaşda məskunlaşmış Laçın köçkünlərindən qədim əşyalar alaraq, 2014-cü ilə qədər 1500-ə yaxın eksponat yığır. Məktəblərdə, mərkəzlərdə təbliğat-təşviqat işi aparıb, Laçın haqqında danışdıqca danışır. Ki, tarix unudulmasın, cavanlar doğma yurddan bixəbər olmasın... Solmaz xanım çox maraqlı bir uşaqlıq xatirəsini danışır. Demə, Laçında yeni kinoteatr tikilərkən yerin altından qədim kəllə sümükləri çıxıbmış. Ermənilər də hay salıblar ki, bəs bizim əcdadların sümükləri üzərində azərbaycanlılar kinoya baxmağa hazırlaşırlar. O zaman məxsusi bu məsələ ilə bağlı Fransadan mütəxəssislər dəvət edilib. Araşdırmalar nəticəsində bəlli olub ki, sümüklərin erməni adlı topluma qətiyyən aidiyyatı yoxdur. Əcnəbi antropoloqların elmi nəticələri barədə Kremlə ünvanlanan rəsmi məlumatı isə Solmaz xanımın rus dili müəlliməsi olan anası şəxsən tərcümə edib...
Kinoteatrın altındakı ikimərtəbəli, 9 otaqlı evlərindən daş-daş üstə qalmayıb. Amma Solmaz xanım Laçına qayıtmaq, əvvəlki kimi çalışmaq, faydalı olmaq istəyir. Axı buradakı tarixi abidələri, qədim ənənələri ondan yaxşı tanıyıb-bilən yoxdur. "Pensiyaçılara iş veriləcəkmi, bilmirəm"- deyir. "XIX-XX əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda sənətkarlıq və ticarət" adlı yeni kitabının siqnal nüsxəsini göstərir. "Bəlkə bu kitabın təqdimatını Laçında keçirək?"- sualımıza təbəssümlə cavab verir.




## Laçın haqqında nənə-babalarının maraqlı hekayələrini dinləmiş uşaqların təsəvvüründə doğma yurd əlvan rənglərlə canlanır...

Laçının işğala məruz qaldığı illər ərzində neçə nəsillər doğuldu, böyüdü. Körpələr “Məlikməmməd” əfsanələrindən deyil, Laçın qəhrəmanları haqqında gerçək hekayələrdən ibrət aldılar. Vətənin ətirli çiçək yetişdirən yaylaqları, əzəmətli sal qayaları, dumduru bulaqları onların təxəyyülündə min bir çalara büründü. Ayrılığın 31 ili ərzində ümid böyüklü-kiçikli kimsənin qəlbini tərk etmədi. Hamı bir nəfər kimi, Laçın haqqında sehrli nağılın xoşbəxt sonluğuna inandı.
2023-cü il bütün laçınlıların taleyinə parlaq rənglərlə həkk olunacaq. Vətənpərvər ailələrdə boy atan gözəl balaların bu balaca əlləri yurdun yeni tarixini yazacaq...



> **"Uşaqlığımın itirilmiş günləri var. Onları yenidən yaşamaq istəyirəm. Heç bir maddiyyat, şərait, qazanc onu əvəz eləmir."**

> **"42 yaşım var, laçınlılar məni hələ də Laçın xəstəxanasının mərhum baş həkimi Rəhim Rüstəmovun oğlu kimi təqdim edirlər və bu mənə qürur verir."**




**Azərbaycan Tibb Universiteti psixiatriya kafedrasının dosenti İkram Rüstəmov orta məktəbin 7-ci sinfini Laçında bitirib. Sonra Bakı həyatı başlayıb, sonra İstanbul Universiteti, sonra Harvard...**

İkram Rüstəmov uşaq psixiatriyası ilə məşğul olan dəyərli mütəxəssislərdəndir. Uğaqlığının ən xoşbəxt çağlarını qoyub gəldiyi Laçın uzun illər onun üçün də əlçatmaz arzu, ən şirin xəyal olub. 2016-cı ildə Aprel döyüşləri zamanı anasına zəng edib soruşub ki, bəs evin sənədləri dururmu. Ana deyib sənədləri indicə çıxarıb qoyub masanın üzərinə. Heyf ki, Laçının azad günlərini görmək anasına qismət olmadı...
Laçın işğaldan azad olunandan sonra doktor Rüstəmov iki dəfə gedib doğma yurda. O zaman Laçını sanki istismar olunmuş kimi, çox dəyişmiş, çox yıpranmış, çox solğun görsə də, İkram bəy əmindir ki, torpağın əsl sahibləri geri qayıtdıqca şəhər əvvəlki halına qayıdacaq, gözəlləşəcək, dirçələcək. İkram bəy özü də doktorluq işini tamamlayan kimi dədə-baba yurduna qayıtmaq istəyir.
Atası Laçında vəfat edib. Yurdu tərk edəndə ikicə nəfər olublar - bir ana, bir oğul. İndi İkram həkimin ailəsində 4 övlad böyüyür.



## “Torpağı işğal olunan kişinin sənəti zabitlik olsun gərək.”

Etibar Məhərrəmov

*Ehtiyatda olan polkovnik*

Ailədəki 6 uşağın ən kiçiyi – Etibar Məhərrəmov 1990-1992-ci illərdə Odessada əsgəri xidmətdə olub. Geri dönən kimi orduya yazılıb - könüllü. Silaha sarılıb Vətəni müdafiə edib. 1995-də gənc Etibar zabit rütbəsi almaq üçün Ali Hərbi Məktəbə daxil olub. Kəşfiyyatçılıq oxuyub. Xüsusi təyinatlı zabit kimi öz hərbi hissəsinə qayıdıb. Sonra təhsilini artırmaq üçün Hərbi Akademiyaya qəbul olunub. 2010-2021-ci illərdə Naxçıvanda xüsusi təyinatlı briqadanın komandiri, kəşfiyyat idarə rəisi kimi məsuliyətli sahələrdə xidmət edib.
Etibar müəllim danışır ki, Naxçıvanda xidmət edən zaman postlardan birinin adını qoyur “İşıqlı post”. Rəhbərlik maraqlanır ki, “işıqlı” niyə, bu ad haradan çıxdı? Polkovnik deyir, Naxçıvandakı həmin postla Laçının arası vur-tut 27 kilometr imiş.
Naxçıvan – dağın başı. Aradakı 27 kilometrlik məsafədə Sisyan. Görünən dağdakı işıqlı şəhər də Laçın. Laçının şərəfinə, Laçın arzusu ilə, işığa çatmaq üçün vətəni gördüyü yeri də “İşıqlı” adlandırıbmış.
İndi o yerlər gerçəkdən işıqlı, nurludur. Laçını qurmağa, bərpa etməyə igid oğullar gəlir…

> **“Bakıda qalıb ömrümüzü gödəldə bilmərik. Laçında olanda ayağımın amputasiya olunduğunu da hiss etmirəm.  Laçın bizi gözləyir!”**

*Vüqar Abduləzimov*

*Ehtiyatda olan polkovnik-leytenant*




Vüqar Abduləzimov şəhid övladıdır.  Atası 90-cı illərdə Laçının müdafiəsi zamanı həlak olub. Uzun müddət yataqxanada yaşayıblar - bir balaca otaqda 6 nəfər.  Vətəni tərk edib köçkün düşəndə Vüqar qərara gəlir ki, hərbçi olsun. Atasının qanını yerdə qoymasın, vətəni düşmən tapdağından xilas etsin.
Bu məqsədlə hərbi məktəbdə təhsil alır. Düz 15 il xüsusi təyinatlı hərbi hissədə qulluq edir. Hərbi akademiyaya daxil olub magistr dərəcəsi qazandıqdan sonra kəşfiyyat zabiti kimi xidmətini davam etdirir. Elə cəbhə bölgəsi yoxdur ki, orada xidmət etməmiş olsun. Vüqar Abduləzimov Aprel döyüşlərində yaralanıb, bir ayağını itirib. Hərbçilərə dərs deməyə başlayıb. Amma bu işi davam etdirməyə də səhhəti imkan verməyib. Söyləyir ki, kontuziyadan sonra  6 saat dərs keçmək çətindir. İşğaldan azad olunandan sonra iki dəfə Laçında olub, atasının məzarını  ziyarət edib. Üç övladı var, üçü də məktəblidir. Mütləq uşaqlarını da götürüb Laçına qayıtmaq niyyətindədir.



“Laçını ilk dəfə müharibə vaxtı gördüm. Şuşadan Laçın istiqamətində keçirilən əməliyyat zamanı ayağım, nəhayət, vətən torpağına dəydi”.

*Tural Xaspolad*








**Tural Xaspolad adi həkim deyil. Tibbi idarəetmə üzrə Türkiyədə magistr təhsili almış gənclərdən biridir. Türkiyədə işi, karyerası var. İstanbulda 25 min işçisi olan klinikalar şəbəkəsində, beynəlxalq əlaqələr şöbəsində qrup koordinatoru vəzifəsində çalışır. Amma...**

Valideynləri Laçındakı Ağcakəndi tərk edəndə, Turalın vur-tut 4 yaşı olub. Doğma yurdu böyüklərin söhbətlərindən tanıyıb. Tanıyıb və sevib. Tural Xaspolad ixtisasca həkimdir. Vətən müharibəsi başlayanda özəl klinikaların birində şöbə müdiri idi. Amma işini də qoyur, ailəsini, 6 aylıq körpəsini də, birbaşa yollanır cəbhəyə - həkim yox, döyüşçü kimi. Hərbi komissarlıqda da, sonradan döyüş bölgəsində də təklif edirlər ki, hərbi həkim kimi fəaliyyət göstərsin, yaralılara xidmət etsin. Tural etiraz edir. Bakıdan Laçın könüllülərindən ibarət 20 nəfərlik qrupla cəbhəyə yollanır. Xüsusi təyinatlı həmlə taborunda xidmət edir. Füzulidən Şuşaya qədər döyüş yolu keçir. Müharibədən geri dönəndə medallarla təltif olunur. Tural deyir, Laçında ən kiçik tibb məntəqəsində, kənd xəstəxanasında da işləyə bilərəm. Atası, babası erməni vəhşiliyindən o qədər danışıblar ki, Tural ta uşaqlıqdan o yerlərin həsrətilə, sevgisilə böyüyüb. Günü bu gün ən böyük istəyi köçüb Laçında yaşamaqdır. Yolunuz açıq olsun, doktor!



**İşğaldan azad olunandan bəri Murad həkim dəfələrlə Laçına gedib. "Öz evimdə qalmışam!"**

Murad doktor Laçının hörmətli ağsaqqallarındandır. Ömrü boyu həkim kimi xidmətdə olub. *"Tibb Universitetinə 13 qəpiyə daxil olan yeganə tələbəyəm. Orta məktəbi bitirən kimi sənədlərimi 13 qəpiyə aldığım, üzərində "delo" yazılmış bir qovluğa yığıb Bakıya gəldim. Universitetdə əla oxusam da, paytaxtda özümə iş axtarmadım, Laçına qayıtdım..."*

Murad həkimin 3 qızı, 1 oğlu var. Qızların biri həkim, ikisi müəllimədir. Oğlu da təhsil sahəsində çalışır.

Oğlu 76 yaşlı atasını gümrah saxlayan səbəblərdən danışdı: *"Ailəmizin bal təsərrüfatı var, qaçqın düşəndə atam arıları da çıxardı. Qubadlı, Füzuli, Şamaxı, sonra Ağsu rayonunda düz 30 il Laçından gətirdiyimiz arıları bəsləmişik, nəslini artırıb qorumuşuq. Keçən il o arı ailəsini təzədən Laçına qaytardıq, əsil Laçın balı əldə etdik."*



Murad həkim illər boyu arı saxladığından, bir çoxlarının bilmədiyindən xəbərdardır. *"Mən həmişə deyirəm ki, arıçı gərək özü də arı kimi olsun – təmizkar, zəhmətkeş, halal. Arı təbiətində deyilsənsə, heç vaxt arı saxlaya bilməzsən. Bilirsinizmi arının neçə gözü var? Beş! Hər gözün də öz xassəsi, öz təyinatı. Qurani Kərimdə adı çəkilən bu canlının hələ çox xüsusiyyətləri var ki, sonadək öyrənilməyib..."*

Ovçuluq Murad həkimlə oğlunun ikinci hobbisidir. *"Gözümü açandan atamı ovçu görmüşəm. Atam müəllim idi, amma ova çıxmağı sevirdi. İndi oğlum da məndən güclü ovçudur. Sentyabrın ortasından fevralın axırına kimi Laçında ov mövsümüdür, kəklik vururduq..."* İşğaldan azad olunandan bəri Murad həkim dəfələrlə Laçına gedib. *"Həm də öz evimdə qalmışam! "- deyir, - hər dəfə Laçın haqqında süjet verəndə, bir beşmərtəbəli ağ ev göstərirlər, bax o bizim evimizdir, Rayon Partiya Komitəsinə keçəndə, 1990-cı ildə istifadəyə verilən o ilk beşmərtəbəli evdə mənə 3 otaq verdilər..."*




“Bizdə bir söz var — “Yurdunda ağac bitsin” deyib qarğış edib qadınlar. Kəndimizin şəkillərinə baxanda mən o sözün ağırlığını hiss etdim...”

Ədəbiyyatşünas, filologiya elmləri doktoru Pərvanə İsayeva deyir ki, Qarabağsız, Ağdamsız, Qubadlısız, Kəlbəcərsiz, Zəngilansız, Cəbrayılsız, Laçınsız yaşadığımız illəri düşündükcə Aşıq Ələsgərin “Arsız aşıq elsiz necə yaşadı?” sualını çox xatırlayıb. Amma heç vaxt ümidini itirməyib.
Atası-anası evlənib Bakıya köçsələr də, ailənin Laçınla əlaqələri qırılmayıb.

## “Laçında Qarabağ Universiteti açılsa, orada dərs deməyə hazıram.”

1988-ci ilə qədər hər yayın üç ayını nənə-baba yanında, Laçında keçiriblər.
Pərvanə Bəkirqızı Laçının çıraqban gələcəyini xəyalında canlandırır. Məkanı yurda, el-obaya çevirən insandır axı.
Bəkir İsayevin ailəsində üç qız övladı böyüyüb, üçü də ali təhsilli. Pərvanə xanımın oğlu da iqtisadçıdır. Dədə-baba yurdunun dirçəlib çiçəklənməsi üçün hər biri əlindən gələni etməyə hazırdır. Bu bütün Laçın camaatının borcudur.





> - Mister Aqasi, siz artıq dünya vətəndaşısınız, Laçında nə iş görəcəksiniz?
> - Bizim üçün dünya Laçından başlanır... ”

## Ağasəlim Həsənov

Ağasəlim Həsənov AMEA Fəlsəfə İnstitutunun Sosial fəlsəfə və ekoloji problemlər şöbəsində aparıcı elmi işçidir. Fəlsəfə üzrə fəlsəfə doktoru, sosial fəlsəfə üzrə dosent elmi adını almış alimdir. İki monoqrafiyası – “Milli ideologiya və milli mənəvi dəyərlər”, “İnteqrasiya problemi fərd-cəmiyyət münasibətləri kontekstində” kitabları nəşr edilib. 55 elmi məqaləsi beynəlxalq indeksli jurnallarda – Avstriyada, Ukraynada, Türkiyədə, Rusiyada, Gürcüstanda rus və ingilis dillərində dərc olunub. Avropalı həmkarları onu “Mister Aqasi” kimi tanıyırlar.

A. Həsənovun fikrincə, Azərbaycanda qədimdən bəri mövcud olan “ağsaqqallıq institutu”nu qoruyub saxlamaq vacibdir. *“Bir dəfə xaricdə konfransda ikən, tədqiqatçılara dedim ki, Azərbaycanda müəyyən yaşayış məntəqələrində nüfuz sahibi olan insanlar sosial münaqişələr zamanı məsələyə müdaxilə edir və qan davasına qədər, hər problemi yerindəcə həll etməyi bacarırlar. Bunu eşidən avropalılar çox təəccübləndilər ki, bəs elə isə, niyə bu ənənəni inkişaf etdirmirsiniz?..”*
Gənc alim planları barədə qabaqcadan danışmağı sevməsə də, İnsan Resurs Mərkəzi yaratmağı düşündüklərini söylədi. *“Laçında ideoloji, maarifləndirici, ən yeni informasiya texnologiyaları ilə təchiz olunmuş bir Mərkəz fəaliyyət göstərməlidir. Biz Zəngəzurun mərkəzi olan Laçına qayıdırıq!”*




*Elnarə Kərəmova*

**“10 yaşımda çıxmışam Daşlı kəndindən. Elə bilirəm o yerlərə getsəm, təzədən uşaqlığıma, elə 10 yaşıma qayıdacağam”.**

## *Kərəmovlar ailəsi*

Ailə başçısı Elçin Kərəmov hərbçidir. Polkovnik-leytenant Vətən müharibəsi iştirakçısıdır, hərbi fəaliyyətinə görə 3 medalla təltif edilib.
Lap kiçik yaşlarından ağır şəraitdə, köçkünlük acısı ilə böyüyən Elnarə xanım uşaqlıq travmalarını hələ də kədərlə xatırlayır.
Atası müəllim, anası kitabxanaçıydı. Babası kəndin dövlətli, sayılan-seçilən kişilərindən olub. Ən gözəl evlərdə yaşayan ailə erməni işğalı nəticəsində evsiz-eşiksiz qalıb, illər boyu vaqonlarda, çadırlarda, torpaq qazmalarda sığınacaq tapıblar.
Elnarə xanım psixoloqdur. 18 nömrəli Laçın məktəbində çalışır - vaxtilə oxuduğu məktəbdə.



## *Elçin Kərəmov*



Elçin Kərəmov Laçından çıxanda 16 yaşı varmış. Mayın 9-da Laçın raket atəşinə tutulub, bir raket düz onların həyatına düşüb. Ertəsi gün atası uşaqları yığıb Bakıya aparır. Bakıya tək canlarını gətirirlər, nə yorğan-döşək, nə əyin-baş, nə qab-qacaq. Heç nə. Bir həftə keçmir qohumlardan biri Laçına qayıdır. Elçin də ona qoşulub rayona gedir ki, evlərindən lazımi əşyaları götürüb gətirsin. Təqvimdə həmin gün idi. Düşmənin Laçını işğal etdiyi gün. Üstündən illər keçsə də, polkovnik-leytenant Kərəmov həmin günün acısını unuda bilmir.

## *Fuad Kərəmov*




İndi Laçın azad, yurd çıraqban, insanlar ümidlidirlər. Ailə doğma yurda qayıtmaq niyyətindədir. Kərəmovların iki oğlundan biri - Fuad idman turizmi ixtisası üzrə təhsil alır. Belə bir mütəxəssis üçün Laçından daha gözəl məkanmı var?..



Bağçam vardı gül-çiçəkli
Süfrəm vardı duz-çörəkli
Ağsaqqallı, ağbirçəkli
Evlərimi görəydin kaş
Mənə qaçqın deyən qardaş!..

*Kifayət Sadıqova*

"Laçın adı gələndə qəlbim sim kimi titrəyir.  Laçınsız keçən illəri sanki yaşamamışam."




**“ Məncə, Laçında böyük atçılıq mərkəzi yaradılsa, əla olar. Qarabağ atlarını görməyə, sürməyə gələnlər burada gözəl vaxt keçirə bilərlər...”**

Aydanın fikrincə, sürətlə abadlaşan Laçın Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Tarixi turizm marşrutları buradan keçəcək. Mədəni həyatı ilə bütün bölgələrin diqqətini çəkəcək. “Laçında kiçik bir studiya açılarsa, jurnalist kimi çalışmağa, reportajlar hazırlamağa, filmlər çəkməyə hazıram.” Yurdumuz, yuvamız, məskənimiz Laçındır. 92-də oradan çıxan qəm karvanı indi toy-bayramla dönəcək. Aydan Azərbaycan Dillər Universitetinin Beynəlxalq Jurnalistika fakültəsində təhsil alır. Babası – 25 il “Laçın qəzeti”nin redaktoru olmuş jurnalist Tofiq Əhmədovun davamçısıdır.

**46 ilin pedaqoqu, əmək veteranı Kifayət müəllimənin 10 nəvəsindən yalnız Aydan babasının yolunu gedib jurnalist olacaq .**

“1992-ci il, may ayının 8-i idi. 2 saylı məktəbin müəllimləri, şagirdləri iməcilikdəydik. Hidayət müəllim bəd xəbərlə gəldi: Şuşa işğal edildi, yaralıları Laçın xəstəxanasına gətirirlər. Hamımız təlaş içində evə qayıtdıq. Həmin gecə atışma səsindən qulaq tutulurdu...” O dəhşətli günlər incəliyinə qədər Kifayət müəllimənin yaddaşına hopub. “30 ildə itirdiyimizi 44 gündə tapdıq” deyir. 46 il sərasər dərs dediyi məktəbdə uşaqlara dönə-dönə Şah İsmayıl Xətainin vəsiyyətini xatırladıb: “Ey türk oğulları! Vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, ləl-cəvahiratına dəyişməyin!..”

Kifayət xanım ədəbiyyatdan dərs dediyi üçün XVII əsrdə yaşamış bayatı ustadı Sarı Aşığın misralarını əzbərdən bilir. 1989-cu ildə ziyarətgahın açılışında 10-cu sinif şagirdlərini həmin ziyarətgaha ilk apardığını yada salaraq, türbənin bərpasının vacib olduğunu vurğulayır.





## *Ramil Kərəmov*

Ramilin Bakıda telefon mağazası var. Kompüter və telefonlara proqramlar yazır, təmir sahəsində yaxşı usta kimi tanınır, telefon və aksessuar alqı-satqısı ilə məşğuldur. Əslində Ramil plastik kütlələrin və elastimerlərin kimyəvi texnologiyası üzrə mühəndisdir. *"Sadəcə, institutu bitirdiyimiz illər çətin dövrə təsadüf etdi. Mühəndis diplomu aldığım 2004-cü ildə böyük istehsalatla məşğul olan müəssisələr iflic vəziyyətində idi..."*

Ramil Vətən müharibəsi iştirakçısıdır. Müharibə başlananda könüllü kimi qeydiyyatdan keçdiyi komissarlıqdan çağırış gəlməsə də, dostlarla bərabər ön cəbhədə döyüşçülərə yardımlar çatdıran dəstələrə qoşulub, Füzuli Diaqnostika Mərkəzində yaradılmış hospitalda təxliyəçi kimi xidmətdə olub. Ramil Laçına ilk qayıdanlardan olmaq istəyir, "işlə bağlı təklif gözləyirəm" deyir. Laçında dövlət qulluğunda çalışmaq arzusundadır. "İstənilən halda quruculuqda fəal mövqe tutmağı, faydalı olmağı bacaracağam..."

**"Mən ADNA-nın kimya-texnologiya fakültəsini bitirəndə, praktikaya getdiyimiz zavodların fəaliyyəti artıq dayanmışdı, onlara muzey kimi baxırdıq. Bir neçə yerə sənəd göndərib ixtisasım üzrə iş tapacağımı gözlədiyim müddətdə öz biznesimi qurmaq qərarına gəldim..."**



**"Ambulansda Laçının Güləbird kəndi yaxınlığından keçirdik. Ermənilər maşını vurdular, yanımızda iki nəfər şəhid oldu, mən isə yaralandım...
Dörd saata qədər sığınacaq tapıb gizləndik, gecə yarısı özümüzünkülərin yanına qayıtdıq..."**

“İndiki təcrübəmlə mebel sexi qurub işlətməyə hazıram. Çox yaxşı laçınlı ustalar var ki,  gözəl, keyfiyyətli əl işləri ilə tanınıblar...”

Qasımovlar ailəsinin başçısı Zülfü həkim Laçın xəstəxanasında cərrah olub. Pərvizin anası Məhərrəmova Məlahət isə Laçın rayon Gigiyena və Epidemologiya mərkəzində işləyib. Məlahət xanım indi təqaüddə olsa da, oğulları ilə bərabər Laçına qayıtmaqda qərarlıdır. Pərviz Qasımov Azərbaycan Dövlət İqtisad Universitetində iqtisadiyyatın tənzimlənməsi ixtisasına yiyələnib. İllərdir ticarətlə məşğuldur. Ət məhsullarının satışı sahəsində təcrübəsi var. Laçında şəraitə uyğun hərəkət edəcəyini düşünən Rərvizin mebel sexi yaratmaqla bağlı fikirləri də var.



Pərviz Qasımov

“Ticarət sahəsində peşəkaram. Laçında şəraitə uyğun hərəkət edəcəyəm...”

İşğaldan azad olunan Laçına Pərviz iki  dəfə səfər edib, şəhəri və bir neçə kəndi gəzib, quruculuq işlərinin sürəti onu heyran qoyub.  “Bəs Bakını qoyub Laçına qayıtmaq niyyətinizə evdəkilər, xanımınız nə deyir?” sualına Pərvizin cavabı qısadır: “Mən harada –  xanımım, uşaqlarım da orada!”





# Solmaz Abışova

“Laçında xalça, tikiş sexlərindən başqa, pemoksol sexi də vardı. Yuyucu tozun təbii xammalı dağın döşündəydi. Get yığ, içinə soda, sulfanol qat, zəhərsiz-ziyansız təbii vasitə al.  Qabları gül kimi təmiz yuyurdu, əlləri də qurutmurdu...”

Solmaz xanım xalçaçılıq üzrə Azərbaycanda sayılıb-seçilən tək-tük mütəxəssislərdəndir. Sənət dilini övladlarına və gələcək nəsillərə naxış-naxış, ilmə-ilmə ötürən ustaddır.



**Oğulları Şahmar və Yelmarın gül balaları Solmaz nənənin ən sevimli əsəridir**

Politexnik İnstitutunu yüksək balla bitirən gənc istedadın təyinatını "Azərxalça" ya veriblər, razı olmayıb. Azad təyinatla Laçına qayıdan gənc kadrı Heydər Əliyev irəli çəkib. Hazır mühəndis texnoloq varkən, kənardan işçi cəlb etmək nəyə lazım?





Solmaz xanım iş başına keçən kimi müxtəlif kəndlərdən olan qız-gəlinə xalçaçılıq sənətinin incəliklərini öyrədib, əllərinə sənət verib. Əfsanəvi Lətif Kərimovun modelləri üzrə toxunan xalçalar "vneştorq" malı kimi xaricə satılar, biri də geri qayıtmazmış. Əl əməyini yüngülləşdirən, rentabelliyi artıran innovativ ideyaları sayəsində xalça mühəndisi Solmaz xanım gənc yaşında fabrik direktoru olur. Laçın işğal edildikdən sonra, Bakıda fabrikin ofisi açıldı. Solmaz xanım o ağır illərdə də xanımların işsiz qalmaması üçün gecə-gündüz çalışdı. Oğlu deyir ki, anasının çox gözəl əl işləri var. "Bir gün anamın yarımçıq toxuduğu xalçanı hava dəysin deyə eyvana sərdik, qapımız neçə dəfə döyüldü, biri 3 min, biri 5 min təklif elədi... "Bu nə naxışlar, necə bir işarə sistemidir?" deyə təəccüblənirdilər..."
Şahmar müəllim ixtisasca mühəndis olsa da, tamam başqa sahə üzrə fəaliyyət göstərir. Böyük şirkətləri avadanlıqla təmin edib servisini təşkil edən kiçik sahibkardır. Distribüter olaraq, illər boyu qurduğu əlaqələr sayəsində bir neçə nəfərdən ibarət kiçik biznes qurumu Azercold, poladəritmə zavodları, broyler şirkətləri, böyük fermalarla əməkdaşlıq edir.



## Azər Səlimov

Birinci Qarabağ müharibəsinin qazisi Azər müəllimin xidmətinin böyük hissəsi cəbhə bölgələrində keçib. Əhəmiyyətli əməliyyatlara görə bir neçə dövlət mükafatına layiq görülüb. Yaşıyla əlaqədar təqaüdə çıxsa da, oğlu bu gün həmin orqanlarda atasının yolunu davam etdirir. Cənab polkovnik tez-tez Laçına gedir. Yaxın zamanda şəxsi təsərrüfatını da ata ocağına aparmaq istəyir. Deyir, Bakıda yaşamaq istəmr, "mənim kimi - ömür boyu Laçının həsrətini çəkənlər mütləq geri qayıtmalıdırlar. Torpağı azad etmişiksə, indi onu əkib becərməli, dirçəldib abad etməliyik. Bu da bir vəzifə, missiya, bu da bir borcdur."

> **"45-70 yaş arası laçınlılar mütləq geri qayıtmalıdırlar. Gənclərin orada yaşaması üçün torpağa bağlı olan yaşlı nəsil Laçında kök salmalıdır. Köhnə ab-havanı yaratmaq əsas şərtdir."**

**Ehtiyatda olan polkovnik Azər Səlimov düz 30 il dövlətin əsas dayaqlarından birində - təhlükəsizlik orqanlarına aid müxtəlif strukturlarda rəhbər vəzifələrdə çalışıb. Yadda qalan neçə-neçə mühüm əməliyyatın müəllifidir.**



**“Üç ixtisas üzrə təhsilim var - muğam, tar ifaçılığı və iqtisadiyyat. Üçündən biri üzrə işləsəm, əminəm ki, elimə-obama fayda vermiş olaram”.**



“Azərbaycanın güclü potensialı ilə Laçını iqtisadi cəhətdən inkişaf etmiş zonaya döndərmək asan məsələdir. Biz vətənin bu gözəl guşəsini həm də mədəniyyətin qorunduğu məkana çevirəcəyik”.
Yusif Cəfərbəylinin bakalavr diplomu iqtisadiyyat üzrədir. Amma uşaqlıqdan musiqiyə meyli olub deyə magistr mərhələsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini seçib. “İqtisadiyyat ikinci peşəmdir” deyir. Amma bu seçim karına da gəlib.
“Tələbəlik illərində İqtisad Universitetində səsi olan elə mən idim deyə bütün müsabiqələrdə, festivallarda universiteti təmsil edirdim”.
Yusif “Tələbə baharı” ümumrespublika yaradıcılıq festivalında muğam üzrə brinci yerə çıxıb. Hazırda magistrdi. Musiqili tədbirlərin idarə edilməsi, yəni menecmenti sahəsini öyrənir.



## *Yusif Cəfərbəyli*

Musiqinin əlifbasına lap uşaqlıqdan bələddir. Musiqi məktəbində xanəndəlik və tar sinfində təhsil alıb. Muğama olan həvəsi də əvvəlki kimidir. Təyyar Bayramovdan ifa dərsləri alır.
Laçına qayıtmaqla bağlı arzuları sonsuzdur. İlk istədiyi-doğma kəndlərinin adını dəyişdirmək, indi Hüsülü adlanan kəndin tarixi adını geri qaytarmağa çalışmaqdır.
Yusifin özündən böyük bir bacısı var.
Valideynləri də, bacısı da, özü də mütləq Laçına qayıtmaq istəyirlər.



## *Pəri Həsənova*

Çətin şəraitdə oxuyub, Tibb Universitetinə qəbul olunub. Bu gün Bakının məşhur klinikalarından birində çalışır... *"Bilirik ki, gələcəkdə Laçın rayonunda bu ixtisasa ehtiyac olacaq. Ona görə xahlş edirik tələbəniz Pəri Həsənovanın ultrasəs müayinəsi həkimi ixtisasına yiyələnməsinə icazə verəsiniz".* 2001-ci ildə Laçın RİH başçısı Muradxan Cabbarovla Laçın xəstəxanasının baş həkimi Elçin İsgəndərov belə bir tələbnamə ilə Tibb Universitetinin rektoruna yazılı şəkildə müraciət edirlər. Laçının azad olunmasından düz 19 il əvvəl. O zaman Laçın yox idi, Laçın hələ erməni işğalındaydı, insanların ürəyində isə ümid, inam vardı.

> **"Yadımda qalan və bugünəcən qəlbimi incidən bircə məqam var. Tez-tez mənə deyirdilər ki, siz heç qaçqına bənzəmirsiniz. Bu iltifat idi guya, amma dünyam başıma uçurdu. Məgər qaçqın başqa cür olmalıydı?.. "**

Pəri köçkün düşəndə 14 yaşı olub. Deyir, rayondan çıxanda yol tablosundaki Laçın sözünə gözü sataşıb. O anın görüntüsü uzun illər fikrindən çıxmayıb, unudulmayıb. Sonra Bakı həyatı başlayıb. Bir az dayının evində, bir az bibinin evində. Bir müddət də Ukraynada xalasıgildə yaşayıb gənc qız. Və o şəraitdə, daha doğrusu, şəraitsizlikdə oxuyub, oxuyub, yaxşı oxuyub. Tibb Universitetinə qəbul olunub. Bu gün Bakının məşhur klinikalarından birində çalışır. Bu gün o qaçqın-köçkün sözü də tarixə qovuşub. Azad Laçın olduğu kimi, indi azad və məğrur laçınlılar var. Pəri Həsənova da onlardan biridir. El-obasını sevən, yerinə-yurduna qayıtmaq istəyən gözəl həkim qız. Yolunuz açıq olsun!




Çingiz Qəhrəmanov

> “Səhər döyüşə gedəndə anam dedi ki, Çingiz, yuxuda görmüşəm, sinəndən yaralanmısan, ehtiyatlı ol, bala... Getdim. Güllə sinəmdən girib kürəyimdən çıxdı.”

Anasından danışır Çingiz Qəhrəmanov və deyir ki, Qarabağ müharibəsində bu cür heyətdə savaşan olmayıb – altı qardaş, bir ana. “Birinci Qarabağ müharibəsində iki dəfə yaralanmışam. İkisində də yaramı birinci anam sarıyıb.”
İlk dəfə yaralananda elə bil anasına agah olur, oğlunu sanki xəbərdar edir. İkinci dəfə doğma yurdu Səfiyan kəndi uğrunda gedən döyüşlərdə Çingizi snayper vurur. Özünümüdafiə dəstəsinin komandiri kimi lap qabaqda gedirmiş. Ermənilər istəyirlər onu diri götürsünlər, vururlar. Yıxılanda görür ki, onu əsir götürməyə gəlirlər. Özünü toparlayıb avtomata əl atır. Öndə gələnləri yaralayır, arxadakılar qorxub geri çəkilirlər.

**Qəhrəmanovlar Qarabağ savaşında 6 qardaş, 1 ana birgə döyüşüblər. Vətən müharibəsində Çingiz oğlu Rəşadla Laçına ilk qədəm basan qalib döyüşçülərdən olub.**

Müharibə xatirələrini böyük kədərlə danışır Çingiz müəllim, “axı o zaman biz məğlub olmuşduq...” Qəhrəmanov isə həm də müharibənin qalib iştirakçısı olacaqmış. Və bu dəfə də tək yox, oğlu Rəşadla bərabər döyüşə gedir. İftixarla deyir ki, Laçın torpağına birinci onlar qədəm qoyublar. İki oğlu bir qızı var Çingiz müəllimin. Qəhrəmanovlar ailəlikcə Laçına qayıtmaq niyyətindədirlər. Arı da saxlaya, heyvana da baxa bilərlər. Kənd adamı işdən qorxmaz. Böyük oğlunun adını Laçın qoyub yurdun şərəfinə. İndi Laçına görün neçə Laçın qayıdacaq – Laçını dirçəltmək niyyəti ilə.





**Laçın hərbi komissarlığından cəbhəyə yol alan igidlər bir avtobusda yola düşürlər - üzü Qarabağa. İrəlidə bir Laçın vardı — adını eşidib üzünü görmədikləri Vətən...**

# LAÇIN KİMİ OĞULLAR






**“Biləndə ki, 30 il sonra doğma torpağa ayaq basan ilk azərbaycanlısan – ağla gəlməyən bir ruh yüksəkliyi yaranır.”**

Ailədə üç qardaşdan ortancılıdır. Sərxan yanvarın 20-də doğulub deyə ad gününü heç vaxt qeyd etməyiblər. Hər doğum günündə şadlanmaq əvəzində nifrət, qəzəb, intiqam qarışıq hisslər yaşayıb. Elə o vətənpərvərliyin təsirilə də sentyabrın 29-u özü könüllü hərbi komissarlığa yollanıb.

**Cəbhədən sonra da hərbi xidməti polis xidmətilə əvəzləyib. Sərxan Şükürov Laçın rayon polis idarəsində çalışır.**

İxtisası üzrə helikopter mexaniki kimi calışmaq istəyirdi. Ertələyib. Müharibəyə gedib. Vuruşub. Üç medal və bir fəxri fərmanla geri dönüb. Laçının işğalından sonra doğulsa da, ixtisasca müəllim olan atası övladlarına doğma el-obaya sevgi aşılayıb. Sərxanın atası Yeni Azərbaycan Partiyasında çalışır.

Şükürovlar səbirsizliklə Laçın gedəcəkləri günü gözləyirlər. Sərxan deyir, eynən müharibədəki kimi, yenə qulluqda, xidmətdə olacaq. Bu dəfə doğma el-obasında asayişi qoruyacaq.



## “Bir qarabağlı olaraq ən ön xətdə mən iştirak eləməliydm. Bu mənim mənəvi borcum idi...”

Ehtiyatda olan gizir Rüfət Hacızadənin atası Nüsrət Hacıyev Birinci Qarabağ müharibəsinin veteranıdır. O zaman uzun illər polis nəfəri kimi döyüşlərdə iştirak edib, yaralanıb. Rüfət Hacızadə Bakıda doğulsa da atasının yolunu davam etdirib, Qarabağ müharibəsində iştirakına görə dəfələrlə təltif olunub.Rüfət Vətən müharibəsi qazisidir. Maraqlı döyüş yolu keçib. Müharibə başlayandan ön cəbhədə olub.






## “Şuşaya daxil olan ilk tank Rüfətin tankı olub.”

Sentyabrın 28-də yaralanıb, tank minasının partlaması nəticəsində qapalı kəllə-beyin travması alıb. İki gün hospitalda qalandan sonra ayın 30-u xəstəxananı tərk edərək ön xəttə yollanır. Həmin gün yenə yaralanır. Bu dəfə yaralını Salyana, oradan da Bakıya göndərirlər. Bakıda diqanozunu da qoyurlar – müvəqqəti olaraq hərbi xidmətə yarasız. Oktyabrın 25-i evdəkiləri aldadıb Beyləqana yollanır. Cibində yaralanması barədə iki sənəd, döyüşənlərə qoşulub gedir düz Cəbrayıldakı dislokasiya məntəqəsinə. 28 oktyabrda məlumat verirlər ki, Şuşada xüsusi təyinatlılara tank lazımdır, könüllü getmək istəyən varmı? Rüfət irəli çıxır. Noyabrın 7-si tankla girir Şuşaya. İkicə gün sonra yenidən yaralanır. Cəbhədə aldığı yaralar ucbatından beyindaxili təzyiqdən əziyyət çəkir. Və bu diaqnozla hələ ki Laçına gedə bilmir. Laçın coğrafi cəhətdən yüksəklikdə olduğundan hələ doğma yurda ayaq basa bilməyib Rüfət. Amma gözləyir. Sağalıb Laçına qayıdacağı günü səbirsizliklə gözləyir.




## “Yaralarımızın şəfası Laçındadır” söyləyir...

*Nüsrət Hacıyevin bir köhnə qeyd kitabçası var. Həmin kitabda 1990-cı ildən bəri qatıldığı döyüşlərin siyahısını tutub. Əlyazma ilə sıralanan tarixlərin uzun siyahısını yenidən vərəqləmək ona asan başa gəlmir. Qızğın döyüşlər, həlak olan dostlar, çəkdiyi əzablar, ağır xatirələr, ayrılıqlar bir neçə sözdən ibarət qeydlərin dar qrafasına sığmır...*

Əslən Laçının Fərəcan kəndindəndir. Hadrutla sərhəddə yerləşən bu kənddə I Qarabağ müharibəsinin ən ağır savaşları gedib. Laçın Polis bölməsinin polis nəfəri kimi 1999-cu ilə qədər ön cəbhədə düşmənlə üz-üzə dayanıb. Qubadlı, Kəlbəcər, Daşkəsən... Ailəsini məzuniyyətdən məzuniyyətə görüb. Xanımı ilə övladları Bakıda, özü Füzulidə... Təkcə məğlubiyyət acısı yox, qalibiyyət sevinci də yaşayıb. Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış “Horadiz əməliyyatı”nın iştirakçısıdır, Cocuq Mərcanlının düşməndən geri alınmasında onun da xidməti var.

**Qarabağ uğrunda bütün döyüşlərdə polis nəfəri kimi iştirak etmiş Nüsrət Hacıyev 44 günlük Vətən Müharibəsində Şuşa fatehləri cərgəsində duran oğlu Rüfət Hacızadənin şücaətindən iftixarla danışır. Bəs necə?! Həm özü qəhrəmandır, həm də qəhrəman oğul atası...**

Təqaüdə çıxdıqdan sonra dolanışıq üçün fəhləlik edib. Halal qazanıb. Və halal bir övlad yetişdirib. Oğlu Rüfət Vətən Müharibəsində tank komandiri olub. Onun döyüş yolu haqqında internetdə xeyli məlumat var. Atası deyir ki, müharibədə 3 dəfə ağır yaralanan Rüfətin müalicəsi hələ də davam edir. “Elə indi xəstəxanadan çıxıb məni sizinlə söhbətə gətirdi.” Nüsrət Hacıyevin özü də müharibədə xəsarətlər alıb.





"Laçında hamı bilir İsgəndər bəyin yurdu haradır. Elə o yerdə bəy babaların ocağını közərtmək, ata-baba yurdlarını canlandırmaqdır niyyətim. Sağlıq olsun..."

## *Laçın Paşayev*

"Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri Xosrov bəy Sultanov atamın doğmaca əmisi olub. Xosrov bəyin kiçik qardaşı olub İsgəndər bəy. Mən o kişinin nəvəsiyəm."

Ulu babaları Paşa bəy Laçının Kürdhacı kəndində yaşayıb. Azərbaycan Demokratik Cümhuryyətinin süqutundan sonra Paşa bəyin oğlanları İrana gediblər. Xosrov bəyi şura hökuməti həbs edibmiş. Laçın Paşayevin dediyinə görə, o zaman N.Nərimanov Xosrov bəyin həbsdən qaçmasına şərait yaradıb. Xosrov bəy əvvəl sərhədi keçib Türkiyəyə yollanıb, sonra da Almaniyada yaşayıb. Azərbaycanda repressiyalar başlayanda Xosrov bəyin qardaşlarını Sibirə sürgün ediblər. Laçın Paşayevin atası Kamal o tuthatutda Bərdədə gizlənib. Paşayevlərin bu qolu elə o zamandan Bərdədə yaşayıb. Amma hər zaman biliblər ki, dədə-baba yurdları Laçındadı. Birinci Qarabağ müharibəsində əlində silah düşmənlə vuruşanlardan biri də Laçın olub. Laçın Paşayev deyir ki, 3 övladı var, üçü də özünü laçınlı hesab edir. Polkovnik günü bu gün də Daxili İşlər Nazirliyində çalışır. Xidmət elə hər yerdə xidmətdir. Buna görə də müraciət edib Laçında xidmət etmək istəyir. Paşayevlər 6 qardaşdırlar. Onlardan üçü böyük məmnuniyyətlə Laçına qayıtmaq fikrindədir.



Doqquz uşaqlı böyük ailə Laçından çıxanda Gülməmmədin 8 yaşı olub. Bacı-qardaşları kimi o da köçkünlük həyatının hər acısını yaşayıb. Amma bu dünyanın ən böyük uğurlarına, ən dəyərli qələbələrinə də imza atıb – təbii ki, zəkası, qabiliyyəti və çalışqanlığı sayəsində. Gülməmməd Məmmədov məktəbi bitirən il ən yüksək balla Bakı Dövlət Universitetinin fizika fakültəsinə qəbul olunub. Sonra magistratura. O zaman eşidib ki, İtaliyada bir mərkəz var – beynəlxalq nəzəri fizika mərkəzi. Ora sənəd göndərir. İldə dünya üzrə cəmi 10 nəfərin qəbul olunduğu mərkəzdə bir illik təqaüdlü proqram qazanır. Orada da yüksək nəticələr göstərir. Tövsiyə edirlər Amerikaya getsin. O vaxt yalnız Amerika vətəndaşları üçün ili 50 min dollarlıq universitet təqaüdü vardı. Gülməmməd Məmmədov bu təqaüdü qazanan yeganə qeyri-amerikalı olur.




**Bir vaxt Laçından Bakıya köçkün kimi gələn, Bakıdan Avropaya, oradan da Amerikaya ən savadlı mütəxəssis kimi gedib böyük elmi uğurlar qazanan Gülməmməd Məmmədov bu gün ADA Universitetində dərs deyir.**

Doqquz il davam edən Amerika təhsilindən sonra Sirakuz Universitetində ABŞ təhsil sisteminin ən ali elmi dərəcəsi olan fəlsəfə doktoru adını alır. Bir müddət elə həmin ali məktəbdə dərs deyir. Qayıdıb ki, öyrəndiklərini məmləkət gənclərinə öyrətsin. Qayıdıb ki, millətə, vətənə, xalqa fayda versin. Gülməmməd müəllimin ictimai fəaliyyəti də var. Dağlıq Qarabağın azərbaycanlı icmasında sədr müavini olub. Vətən müharibəsindən sonra o təşkilatı buraxıb, yerində “Qarabağa dönüş” İctimai Birliyi yaradıblar. Alim həmçinin Təhsil Nazriliyi yanında ictimai şuranın sədr müavinidir. Bütün bunları buraxıb getmək ciddi boşluq yarada bilər. Alim düşünür ki, onun kimi adamlar qabağa düşüb getməsə, əməli ilə göstərməsə ki, bu torpaq, bu dəyərlər bizimdir , o zaman arzulanan nəticələrə çatmaq çətin olar. Arzularsa çox, rəngarəng və bir-birindən maraqlıdır.

## *Fəxri Məmmədzadə*

Fəxrinin 18 yaşı var. Gələcək planları barədə soruşanda “əvvəla, əsgərliyə gedəcəyəm” deyir. Hərbi xidməti başa vurandan sonra ali təhsil almağı düşünür. Peşəkar idman onun seçdiyi yoldur.

**Fəxri Məmmədzadə 10 ilə yaxındır ki, idmanla məşğuldur. Şotokay idman klubunun üzvüdür. Qaydasız döyüş üzrə yarışlarda iştirak edir, uğurlar qazanır. Müəllimi MMA Federasiyasının baş məşqçisi Vilayət Quliyevdir.**





## *Ülviyyə Qurbanova*

**Ülviyyə müəllimə Laçın rayon Aşağı Cicimli kənd məktəbində direktor müavinidir. Bacıoğlu Fəxri isə sözün əsl mənasında ailənin fəxridir.**

Ülviyyə xanım Laçına qayıdanda, təbii ki, ixtisası üzrə çalışmağı düşünür. Amma ən böyük arzusu evdar xanımlar üçün iş qurmaqdır. “İndiki zamanda xanım da yoldaşı ilə əl-ələ verib çalışmalıdır, – deyir. – İstəyirəm, heç bir qadın işsiz qalmasın.” Əsas peşəsindən əlavə, Ülviyyə müəllimənin İKT sahəsində bacarığı var, idarəçiliklə bağlı təlimlər keçib.





## Nəzakət Salmanova

Nəzakət həkim 1969-cu ildən bəri həkimlik edir. Əvvəl Laçın Mərkəzi Xəstəxanasında terapevt, sonralar isə rayonda təşkil edilmiş yoluxucu xəstəliklər şöbəsinin müdiri olub. İctimai fəallığına görə Laçın rayon sovetinin deputatı seçilib, SSRİ-nin "Səhiyyə Əlaçısı" döş nişanı alıb.

İbadovlar Laçında nümunəvi ailə olublar. Ata Akif İbadov Laçın rayon icra başçısının müavini, ana Nəzakət xanım tanınmış həkim, xəstəxanada şöbə müdiri.
Ermənilər Laçını işğal edəndə evin böyük qızı Bakıda ali təhsil alırmış. Ailə qız üçün kirayələnən mənzilə pənah gətirir. Ev sahibi başqa otaqlarını da verir köçkünlərin ixtiyarına. Beləcə, Bakıda məskunlaşırlar.
Əli bəy deyir ki, Laçının mərkəzindəki evlərində hazırda yüksək səviyyədə təmir-bərpa işləri gedir. Heyfsilənir ki, atası bu günləri görə bilmədi.
Hamı kimi İbadovlar da vətənə qayıtmaq istəyirlər. Anası Nəzakət xanım düz 51 il həkimlik edib, indən belə işləməsə də olar. Əli bəy isə Azərbaycanın hər yerində lazımlı kadrdır.




**Əli bəy hüquqşünasdır, 2017-ci ildən bugünə qədər Bakı Ağır Cinayətlər Məhkəməsində işləyir. Dövlət qulluqçusudur.**



1992-ci ilin ağır günlərində Nəzakət xanım yaralıların müalicəsi üçün əlindən gələni edib, müharibə veteranıdır. Bakıya köçəndən sonra Kliniki Tibbi Mərkəzin yoluxucu xəstəliklər şöbəsində çalışıb. Təcrübəsi, xəstələrə qayğıkeş münasibəti ilə hörmət qazanıb, respublikanın sayılıb-seçilən həkimlərindəndir. Dörd övladından ikisi onun sənətini davam etdirir, ikisi hüquqşünasdır. Hər zaman dada çatan həkim, zəhmətkeş xanım, uşaqlarının istəkli anası, altı nəvənin sevimli nənəsi, nəslin hörmətli ağbirçəyidir Nəzakət xanım.

## “2020-ci il, oktyabrın 30-da artıq əynimdə hərbi geyim vardı...”



### *Elmin Qəhrəmanov*

Elmin ADİU biznesin təşkili və idarəetməsi fakültəsini bitirib. Əhalinin siyahıyaalınması zamanı 23 yaşında ikən, Mərkəzi Statistika Komitəsində baş məsləhətçi kimi çalışıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də mühəndis-nəzarətçi işləyib. “Qobu park 3” yaşayış kompleksinin rəisi olub. Eminin fikrincə, karyerasında növbəti mərhələ Laçınla bağlı olacaq. *“İndiyə qədər qazandığım təcrübə, təşkilatçılıq bacarığımla bu sahədə faydalı olacağam.”*



*“Əsgərlikdə qumbaraatan olmuşam. II Qarabağ müharibəsi başlanan kimi hərbi komissarlıqda könüllü kimi qeydiyyatdan keçdim. Artıq 35 yaşındaydım, ailəm, 2 övladım... Bircə bunu düşünürdüm ki, qismət olsa Laçını görəcəyəm... Döyüş yolumuz Qubadlıdan başlandı. Sonacan Laçında xidmət etdim. Ermənilər dekabrında şəhəri təhvil verdilər. Biz də mühafizə təşkil edirdik ki, təxribat törətməsinlər...”*

*“Laçına qayıtmaq üçün ilk şərait yaranan kimi portalda qeydiyyatdan keçdim. Laçını gəzdik, uşaqkən suyundan içdiyim Turşsuya getdim. İndi o yer ermənilər üçün çəkilən təzə yola yaxındır. Heç nədən ehtiyat etmədim, ürəyim soyuyunca, doyunca su içdim, gəldim...” Elmin əmindir ki, məkan məskunlaşdıqca, torpaqlara insan nəfəsi dəydikcə, quruculuq prosesi daha da sürətlənəcək.*



*Elnur Abdullayev*

> “Laçın adi bölgə deyil, regional əhəmiyyətli ərazidir. Qarabağın möhtəşəm quruculuq prosesində Laçın istinad nöqtəsi olacaq. Onun hər sahəsinə - yeraltı, yerüstü sərvətlərinə, turizminə, təsərrüfatına və ən əsası – zəhmətkeş insanına yatırım edən hər kəs hökmən qazanacaq. Məncə, investisiya qoymaq üçün yer axtaranlar çox tərəddüd etməsinlər, məqamdır, ləngiməsinlər, sonra gec olar...”

**Laçında bütün məşhur şəcərələri  tanıyan, 7 arxa dönənini araşdıran Elnur müəllim özü “dağ fransızları”ndandır. Ata yurdu Əhmədli kəndinin camaatını  səliqə-sahmanından – tərtəmiz ayaqqabısından,  bir də ütülü şalvarından tanıyarmışlar. Vaxtilə təhsil dalınca Fransaya gedən, sonra qayıdıb kənd əhlinə sənət, savad öyrədən oğullar olub bu kənddə...**



**Elnur Abdullayevi  tanıyanlar deyir ki, o, 1976-cı ildə yox, 1876-da doğulub. Və bu, sadəcə, zarafat deyil. Elnur müəllimin fenomenal yaddaşı, mükəmməl araşdırma qabiliyyəti, dəmir kimi məntiqi var. Laçının tarixini, müxtəlif dövrlərdə yaşamış insan hekayələrini o qədər detallı nəql edir ki, sanki yüz illər öncə baş verən hadisələrin şəxsən şahidi olub. Yəni adam Laçının canlı Vikipediyasıdır.**

1992-ci ildə, 16 yaşında ikən Laçından ayrı düşsə də, 30 il boyu yurduna ruhən daha da yaxınlaşdı. Bəs bu qədər informasiyanı beyninə necə həkk etdi? Ki, Laçının hər qarışına, tarixi abidələrinə, təbiətinin xassəsinə, kəndlərin özəlliyinə, qədim toponimlərə, məşhur qəhrəmanların tərcümeyi-halına, səcərələr arasındakı bağlara dərindən bələddir. İllər keçdi, o həvəsdən düşmədi, bilgilərini sistemləşdirdi, laçınlıları axtarıb-aradı, hər nəslin ağsaqqalını, hər təzə doğulan körpəni adbaad tanıdı. Deyir ki, Laçının 81 min əhalisindən yanımda bircə naməlum ad çəkilsə, həmin gecə gözümə yuxu getməz. Hətta laçınlının üzünə baxanda hansı kənddən olduğunu müəyyən edir...   Əlbəttə, 31 il boyunca bu məlumatları, sadəcə, maraq üçün  yığarkən heç bir təmənnası olmayıb. Ümidlə yaşayıb. Azad Laçının firavan günlərini öncə təxəyyülündə yaradıb. Sürətlə bərpa olunan Laçında hansı evdə kimin yaşadığını -  ailənin tərkibinə, hətta telefon nömrəsinə qədər bilən Elnur müəllimin “informasiya bazası”na tələbat böyükdür. Tarixi öyrəndiyi halda, indi özü tarixi hadisələrin iştirakçısıdır. “Laçın Abadlıq” Şirkətinin yanında, quruculuq prosesinin birbaşa mərkəzindədir. Birinci ixtisası memarlıq, digəri sahibkarlıq. Elnur müəllim ilk növbədə dağ ətəyində, təbii amfiteatra bənzər Laçının özəl simasını qorumağın vacibliyini vurğulayır. “Şəhərdə elə yerlər var ki, orada texnikanın çalışması mümkün deyil – qaya daşları, əl əməyi ilə möcüzə tikililər, gözəl daş hörgülər yaradılıb . Əsas məsələ keçmişi, xalq memarlığını qorumaq, yanlışları qaldırmaq və gələcəyə baxmaqdır...” Özəl biznes qurmaq sahəsində təcrübəsi olan maliyyəçi kimi, E. Abdullayev iş adamlarına bugünə-sabaha deyil, gələcəyə hesablanmış layihələrə köklənməyi təklif edir.




> **“Dünyaya nə qədər geniş baxsaq da, istəyirəm birinci növbədə öz ölkəmin insanlarına faydalı olum. Çünki burada işinə məsuliyyət və sevgi ilə yanaşan savadlı kadrlara həqiqətən böyük ehtiyac var.”**

“Hər şey birdən-birə dəyişdi. Kimin ağlına gələrdi ki, 31 il sonra Laçını azad görmək xoşbəxtliyi bizim nəslin taleyinə yazılacaqmış” – deyir Şəbnəm. Və düşünür ki, ata yurduna həkim kimi qayıdacaqsa, öz ixtisasına mükəmməl yiyələnib, ən yüksək səviyyədə təhsil alıb mütəxəssis kimi dönməsi vacibdir.

**Şəbnəm Azərbaycan Tibb Universitetinə 670 balla daxil olub. Müalicə-profilaktika üzrə təhsul alır. Tibb uzmanlığı sınağına hazırlaşır.**

Tibb Universitetinin 5-ci kurs tələbəsidir. Laçını atasının hekayələrindən tanıyır. İşğal bitəndən sonra yeni çəkilmiş fotolara baxır - doğma torpaq təsəvvüründə canlandırdığından daha gözəlmiş. Şəbnəm illər boyu Laçının tarixi, insanları haqqında məlumat toplayan, indi isə bütün gücünü, zamanını, savadını, təcrübəsini Böyük Qayıdışa yönəldən atası ilə qürur duyur. “İlk vaxtlar Laçına gedəndə çox narahat olurduq, bilirdik ki, hər təhlükəni gözə alıb, heç nədən çəkinmir, qorxmur. Elə indi də səfərə çıxanda, nigaran qalırıq, amma bilirik ki, bu onun seçimidir, yolundan dönən deyil.” Yurd sevgisi də irsən, qanla keçirmiş. Şəbnəm Aviasiya Akademiyasında oxumaq üçün imtahanlara hazırlaşan kiçik qardaşı ilə birgə qəti qərar veriblər – təhsillərini tamamlayıb hökmən bağlı olduqları yerə - Laçına qayıdacaqlar.






**“Laçından çıxanda dedilər ki, bu müvəqqəti gedişdir, mütləq qayıdacaqsınız. Elə də oldu. Qayıtdıq, düz 30 il sonra qayıtdıq.”**

**Arif Məmmədli ixtisasca müəllim olsa da, 25 ildən çoxdur taleyini mətbuata bağlayıb. Əslində elə mətbuat da maarifçiliyə xidmət edir, sadəcə, auditoriya daha genişdir.**

Laçında yaşadıqları zaman Arif müəllim adi bir kənd müəllimi olub. Ailə, iki uşaq. Günün birində Şuşa işğal olunur, camaat düşür təşvişə. Deyirlər ki, təcili kəndi tərk etmək lazımdır. Təpədən-dırnağa silahlanmış erməni quzğunlarının qarşısını əliyalın, silahsız almaq mümkün deyil.

Kənddən çıxırlar. O ümidlə ki, ara sakitləşən kimi geri qayıdacaqlar. Özlərilə bir-iki dəst pal-paltar götürürlər, vəssalam. Bakıda Tibb Universitetinin yataqxanasında məskunlaşırlar. Düz 29 il yataqxanadakı bir otaqda yaşayırlar. Qız köçürdürlər. Köçkünlük dönəmində Arif Məmmədli müəllimliklə yanaşı, Azərbaycan Tibb Universitetinin “Təbib” qəzetində işləməyə başlayır, müxbir kimi fəaliyyət göstərir. İllər sonra özü “Laçın yurdu” adlı jurnal təsis edir. Müharibədən qabaq onlara Qobu-Parkda ev verirlər. Nəhayət, öz evləri olur, yataqxanadan çıxırlar. Amma deyir ki, nə şərait olsa da, ürəkləri Laçındadır. “Vətən başqa şeydir. Vətənsiz yaşamaq olmur...”

## *Nizami Salmanov*




> **“Anam yuxularında Laçını tez-tez görür. Amma nə müharibə girir yuxusuna, nə işğal, nə qaçqınlıq. Gördüyü elə Laçının gözəl çağlarıdır - abad, çıraqban vaxtları.”**

> **“Laçında ən çox mənim peşəmə ehtiyac olacaq.”**

Nizami Salmanovun fikrincə, Laçının coğrafi mövqeyi imkan verir ki, ərazidə bir neçə turizm sahəsi inkişaf etdirilsin. Məsələn, qış turizmi – xizəksürmə üçün bütün imkanlar var. Və ya ekstremal turizm – şiş qayalar, dağ çayları nə qədər desən. Səhiyyə turizmi – Laçın mineral su yataqlarıyla zəngindir, torpağın bitki örtüyü isə – can dərmanı. Qalır ərazini abadlaşdırıb bu sahələrin hər birini inkişaf etdirmək.

1990-cı ildə Nizami dünyaya gəlməmiş atası vəfat edib. Körpəyə atasının adını qoyublar. Köçkünlük düşəndə də anası Şəfiqə iki azyaşlı balası ilə Ağcabədiyə sığınır, səkkiz il qaynatasıgillə yaşayırlar. Sonradan qadın öz qardaşının yanına – Tərtərə pənah aparır.
İndi Salmanovlar Müşfiqabadda kirayədə qalırlar. Nizami on ildir hotel sistemində çalışır. Ailəlidir, iki övladı var. Bacısı Gəncədə müəllimlik oxusa da, o da işləmir. Ailəlidir, iki övlad böyüdür.
Salmanovlar ailəlikcə Laçına qayıtmaq istəyirlər. Nizami əmindir ki, onun iş problemi heç olmayacaq. Hotelçilik işini gözəl bilir. Onu işə götürməyib, kimi götürəcəklər? Bu mövzuda nikbin və arxayındır.




“Elə kənddə olanda da oxuyurdum. Amma o qədər gözəl ifaçılar vardı ki, mən onların ən zəifi idim.”

**Azərbaycan Respublikasının əməkdar artisti Ehtiram Hüseynov tanınmış muğam ifaçısı, M. Maqomayev adına Dövlət Filarmoniyasının solistidir.**

I Qarabağ savaşı başlayanda Ehtiramın atası da bütün laçınlılar kimi özünümüdafiə dəstəsinə yazılıb, döyüşlərdə iştirak edib. Şəhər işğal olunanda hamı kimi onların da taleyinə ağır köçkünlük düşüb. Respublikanın əməkdar artisti Ehtiram Hüseynov həmin qanlı-qadalı günləri xatırlamaq istəmir.

Laçından söz düşəndə lap uşaqlığından o dağ şəhərində keçirdiyi gözəl həyatdan danışır.
Deyir ailələrində, qohum-əqrəbada mahnı oxuyan çox olub. Anasının da, xalasının da gözəl səsi varmış. Nəsillərində yalnız Ehtiram sənətlə məşğul olmaq qərarı verib.
Ata-ana, nənə-baba, dörd uşaq - yurdlarından köçkün düşəndə böyük bir ailə Biləcəridəki dar mənzilə yerləşməli olub. Valideynləri maddi və mənəvi sıxıntılara baxmayaraq, Ehtiramın istedadını dəyərləndirirlər. Musiqi məktəbi, sonra Asəf Zeynallı adına Musiqi kolleci və nəhayət, Azərbaycan Milli Konservatoriyası. Eyni zamanda müsabiqələr, festivallar, konsertlər... Bu gün Ehtiram Hüseynov ölkənin tanınmış muğam ifaçılarından biridir.

**“ Anam həmişə özü çörək bişirərdi. Bir gün atam un alıb fəhlə ilə evə göndərib, adam yarı yoldan qayıdıb ki, ay Xanış kişi, deyəsən, evinizdə qız toyudur. Atam gülüb: toy deyil, qardaş, qızlar bizə nahara yığışıblar... Süfrəsi açıq ailə idik...”**



Laçın Bankının müdiri Xanış kişinin böyük ailəsi rayonu tərk edəndən cəmi bir neçə gün sonra Aybəniz xanımla Afaq xanımın həyat yoldaşları eyni gündə – mayın 9-da şəhid olublar. Əhmədov Şahin Əhməd oğlu və Heydərov Ramiz İsmayıl oğlunu rayonda qalan kişilər, hərbçilər tələsik dəfn ediblər.

Ailədə, demək olar ki, hamı maliyyəçidir, bankda çalışırlar. Aybəniz xanım uğurlu sahibkardır, şirniyyat evi var, oğlu ilə bərabər restoranın maliyyə işlərini idarə edir. Laçına qayıdandan sonra da öz bizneslərini quracaqlarına inanır. *“Bizim əlimizdən hər iş gəlir. O çətin illərdə Bakı kimi böyük şəhərdə özümüzə güzəran qura bildiksə, təbii ki, öz dogma Laçınımızda daha böyük işlər görəcəyik...”*

Ailənin ağbirçəyi 83 yaşındadır. 30 il Bakıda yaşasa da, özünü qonaq kimi hiss edib, Laçına ilk turların açılacağı günü gözləyir. Laçını yalnız böyüklərin söhbətlərindən tanıyan cavanlar kurslara yazılıb, şəhərin dirçəlməsi üçün ən vacib ixtisaslara yiyələnməyə hazırdırlar. *“Bizim torpağımız belədir – bərəkətli, verimli... Bilirəm ki, biz Laçına dönən kimi illərin yorğunluğu, gərginliyi canımızdan çıxacaq, o torpağa ayaq basan kimi gücümüz-qüvvətimiz, sevincimiz, rahatlığımız qayıdacaq...”*

*Aybəniz Heydərova, Afaq Rzayeva, Mətanət Rzayeva*






**“Məktəbdə mənə Lermontovu, Puşkini, Suvorovu öyrətmişdilər. Azərbaycan tarixindən bildiyim yalnız torpaqlarımızın işğal tarixləri idi.”**

Samurat müharibənin ən qızğın çağında dünyaya gəlib. Laçın işğal olunanda İbrahimovlar ailəsi köçkün kimi heç yerdə rahatlıq tapa bilmirlər, ta 1995-ci ilə qədər. Samuratın 3 yaşı olanda ailə Rusiyaya üz tutur. “Sinfimizdə iki bacı vardı, erməni qızları. Bir dəfə məktəbdə mübahisəmiz oldu. Bu bacılar dedilər: – Qarabağ bizimdi... Mən dedim: – Qarabağ Azərbaycanındı. Rus sinif yoldaşım vardı, o da qızların tərəfini tutdu. Mən dedim, elə Qarabağı da sizin ruslar alıb verib ermənilərə. Dava düşdü. İş o yerə çatdı ki, axırda valideynlərimizi çağırdılar məktəbə. Dedilər, bir də belə söhbət olmasın.” Samurat 9-cu sinfi bitirəndə ailə qərar verir ki, Vətənə qayıtsınlar, oğlan son sinifləri burada oxusun, əsgəri xidmətini də öz ordumuzda keçsin.

**Samurat oktyabrın 20-də Qubadlı döyüşlərində ağır yaralanıb. Əvvəl öldüyünü zənn edib onu morqa aparıblar. Orada ürəyini masaj ediblər, nəbzi vurmağa başlaylb. 3 gün komada qalandan sonra özünə gəlib.**

Vətən müharibəsi başlayanda Samurat könüllü cəbhəyə gedir. Onu Goranboya göndərirlər. Samurat düz 10 dəfə əməliyyat olunub. YAŞAT Fondunun köməyilə Bakıda, Türkiyədə uğurlu cərrahi əməliyyatları olub.
2-ci qrup əlildir. Samurat ailəlidir.
Bir qızı var. Qarabağ qazisi istəyir ki, qızlarını dədə-baba yurdunda – Laçında böyütsün.
Bir arzusu da var. Laçının özündə ayrıca bina tikilsin, Laçın uğrunda şəhid olanların ailələri, həmçinin Qarabağ qaziləri, müharibədə döyüşən igidlər bir binada yaşasınlar.






**Taleh bu gün bildiklərini yeniyetmələrə öyrədir. Laçın rayon Zabux kənd orta məktəbində hərbidən dərs deyir.**

Taleh dayısı haqqında qürurla danışır. Deyir ki, döyüş yolu keçmək, mücadilə aparmaq onun da taleyinə yazılıb, eynən dayısı kimi. Ən ağır döyüşlərdən sonra mühasirəyə düşən Şakir o zaman bizim mövqelərimizə qayıdanda Azərbaycan bayrağı çiynində, Quranı-kitabı da cibində olub.

Taleh İsgəndərli ailədə, evdə eşitdiyi bu Qarabağ hekayələrinin təsiri ilə vətənpərvər bir mühitdə böyüyüb. Polad Həşimov həlak olanda Bakıda yürüş oldu – Polad yürüşü. Bir çox vətənpərvər kimi Taleh də o yürüşə qatılır. Gənclər istəyirdilər ki, səfərbərlik elan olunsun, torpaqlar azad edilsin. Müharibə başlayanda səfərbərlik üçün müraciət edən ilk oğullardan olur Taleh. Döyüşlərin birində ağır yaralanır, 10 gün komada qalır. Ayılandan sonra da neçə gün danışa bilmir. Taleh başında bu gün də qəlpə gəzdirir. Həkimlər onu əməliyyat etməyə ehtiyat edirlər. Qəlpənin çıxarılması daha ağır fəsadlar verə bilər.

Qarabağ qazisi müharibədən gələndən sonra ailə qurub. Bir qız atasıdır. Deyir, Laçına qayıdanda yenə öz işini davam etdirmək – gənclərə vətənpərvərlik, döyüşkənlik, qorxmazlıq aşılamaq istəyir. Bu hisslər üçün mütləq silahla davranmağı bacarmaq lazımdır. Hərbidən dərs deyən Taleh müəllim də laçınlı uşaqlara elə bunu öyrədəcək.



> “Laçına dönən kimi ilk istəyim 30 il gözü yolda qalan mərhumlarımızı ziyarət etmək, qəbirlərimizi bərpa etməkdir”

**Tahir Mirzəli hər iki Qarabağ müharibəsinin iştirakçısıdır. Birinci Qarabağ savaşında polis kimi döyüşüb. Vətən müharibəsi başlananda da cəbhəyə könüllü yollananıb.**

## *Tahir Mirzəli*

Müharibənin ağrı-acısı onların ailəsindən də yan keçməyib. Qardaşı, xalası oğlu, dayısı oğlu şəhidlik zirvəsinə ucalıblar. Oğlu Rüstəm də müharibəyə könüllü gedib. Şuşaya ilk daxil olan igidlərdəndir. Cəbhədə göstərdiyi şücaətə görə 5 medalla təltif olunub. Hazırda Şuşada işləyir Rüstəm. Ata-bala ikisi də vətən qarşısında borclarını yerinə yetiriblər, bərabər vuruşublar. Belə ailə, şübhəsiz ki, doğma yurda qayıtmaq istəyəcək. İşğalçılar Tahir müəllimin Laçındakı evini darmadağın ediblər. Ötən ilin yayında Laçına yollananda evinin yerində meşəlik yarandığını görüb sarsılıb. Amma əsas bu deyil. Əsas torpaqdır. Vətən düşməndən qurtulub. Və bu vətəni ata-oğul bərabər azad ediblər. Bu qüruru yaşamaq da hər kəsə nəsib olmur. Vətən azaddırsa, ev də olacaq, iş-güc də, həyat da.






## Vətən müharibəsinin iştirakçısı Rüstəm Mirzəli bu gün də strateji mövqedədir. İki ildir Şuşada çalışır.

Rüstəm Bakıda doğulub, Bakıda böyüyüb, heç köçkün statusu da yoxdur, amma ta uşaqlıqdan bilir ki, bir şəhidin adını daşıyır. Ta uşaqlıqdan bilir ki, birinci Qarabağ savaşında ermənilər adı adından, soyadı soyadından olan Rüstəm Mirzəyevin başı üçün yüksək məbləğdə pul qoyubmuşlar. Elə bir əfsanəvi döyüşçü olub əmisi.

1990—1993-cü illərdə Laçın rayonunun Güləbird, Səfiyan, Suarası, Hoçaz, Tığık 1, Tığık 2, Vağazin, Pircahan kəndləri, Şuşa şəhəri və onun Kərgicahan, Malıbəyli, Daşaltı kəndləri, Kəlbəcər-Murov dağı - Ağdərə istiqamətində gedən qanlı döyüşlərdə polis nəfəri kimi döyüşən Rüstəm Mirzəyev Ağdərədə həlak olur.

Həmin ərəfədə şəhidin qardaşı oğlu dünyaya gəlir. Şəhidin xatirəsini yaşatmaq üçün körpəyə Rüstəm adı verirlər. Və Mirzəyevlər ailəsindəki birinci Rüstəm kimi ikinci Rüstəm də vaxtı çatanda silaha sarılıb düşmənlə mübarizəyə qalxır.

Müharibə başlayanda Rüstəm Mirzəli könüllü cəbhəyə yollanır. Qubadlı, Füzuli, Şuşa döyüşlərində iştirak edir.

Rüstəmin ən böyük arzusu Laçına köçməkdir. Ata yurduna bağlı öz planı var. İki bacısı ilə əl-ələ verib iş qurmaq istəyirlər – turizm mərkəzi, restoran, kafe, hostel. “O ucqar şəhəri dirçəltməliyik. Bizi burada saxlayan heç nə yoxdur.”




“Yeraltı sərvətlərə görə Laçın birinci yerdədir. O torpaqlarda qiymətli daşlardan tutmuş tikinti materiallarına qədər hər şey var. Laçında siyahı üzrə 40 yataq müəyyən olunub. Ümumiyyətlə, Mendeleyev cədvəlindəki maddələrin hamısı bizim ölkəmizdə var.”

**Azər Şükürov Zəngəzur sultanı kimi tanınan Qara Murtuzanın nəslindədir. Elə bəy nəslinə görə də babasını 1937-ci ildə güllələyiblər.**

Azər Şükürov elmi fəaliyyətlə yanaşı həm də dövlət işində çalışır. Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyində sədr müavinidir.

Azər Şükürov sovet dövründə Moskva Dağ-Mədən İnstitutunda təhsil alıb. Uzun illər Avropa mədənçilər birliyinin üzvü olub.

Bir neçə özəl şirkət təsis edib. Dünyanın ən yeni texnologiyasını ilk dəfə Azərbaycana gətirən də o olub. Müəllifi olduğu iki patent Avropada və Amerikada təsdiq olunub.

Alimin Laçının sabahıyla bağlı fikirləri də maraqlıdır. Deyir, Laçın kənd təsərrüfatı sahəsində nailiyyətləri ilə seçilib. İllər boyu laçınlılar heyvandarlıq və arıçılıqla məşğul olublar.

Azər Şükürovun fikrincə, regionu ixtisaslı kadrlarla təmin etmək üçün Laçında ən azı iki peşə məktəbi açılmalıdır. Biri kənd təsərrüfatı, biri də dağ-mədən üzrə. Bu həm də yeni iş yerlərinin açılması deməkdir.

“Laçının məskunlaşması ilə bağlı dövlətin konkret proqramı var. Mərhələ-mərhələ hamı köçürüləcək. Buna baxmayaraq, günü bu gün desələr “gedək”, Bakıda bir laçınlı da qalmaz.



*Səidə Quliyeva*

**Səidə xanım Tibb Universitetini bitirib, həkimdir. Məktəbli övladları Laçında oxumağa hazırlaşırlar...**

Səidə xanım o yerləri  xatırlamır – cəmi 5 yaşı olub yurddan köçkün düşəndə. Atası Mehman Quliyev ailəsini də götürüb Laçından çıxıb. Hamı kimi didərgin həyatı yaşayıblar. Səidə xanımın valideynləri qoçaq, işgüzar olublar - çətinlik çəksələr də, ayağa durmağı bacarıblar. Ailənin başçısı aza qane olmayıb,  gün-güzəran dalınca Tatarıstana yollanıb. Orada işini qurandan sonra ailəsini də aparıb yanına. Ər də, xanımı da aşpazlıq etməyə başlayıblar. Xanımı sexdə şirniyyat bişirirmiş. 1999-cu ildən ta 2013-cü ilə qədər Kazanda yaşayırlar. Uşaqlar böyüyür, təhsil alır. Səidə Tibb Universitetini bitirib həkim olur. İndi Səidə xanımın özünün iki övladı var. Oğlu İbrahim dördüncü sinifdə oxuyur. Qızı Dəniz isə Laçında məktəbə gedəcək. Bir biləsiniz, balaca qızcığaz məhz Laçın məktəbində oxumağa necə hazırlaşır...





> “Qızım sosial şəbəkədə Laçın qəbristanlığından çəkilmiş bir foto tapmışdı. Baxdım, baxdım, gördüm daşın birində anamın adı yazılıb - Dostuyeva Gülüş Rəhim qızı. Bildim ki, anamın baş daşıdı. O şəkli görəndən sonra neçə gün özümə gələ bilmədim.”

Ermənilər Azərbaycana qarşı işğalçı müharibəyə başlayanda Qardaşxan Dostuyevin 42 yaşı vardı. Oğlanları Taleh və Xalidlə bərabər özü də silahlanıb döyüşür, ata-baba yurdunun müdafiəsinə qalxır. Çox keçmir, digər həmvətənləri kimi o da el-obasını tərk etməli olur. Laçından söz düşəndə deyir: “Uşaqları salamat çıxarda bildik, amma hər şeyimiz Laçında qaldı – həyatımız, xatirələrimiz, ruhumuz...”

> “Nə olsun ki, yaşım çoxdur, gözüm görür, ağlım kəsir. Hamımız qayıdıb işimizi quracağıq. Laçın kənd təsərrüfatı rayonudur. Heyvandarlıq, arıçılıq, balıqçılıq. Oradakı qızıl balığın tayı-bərabəri yoxdur”.

## *Qardaşxan Dostuyev*

Qardaşxan müəllimin böyük ailəsi var – nəvələri, övladları ali təhsilli mütəxəssislərdir. Neftçi, həkim, mühəndis, kimya mühəndisi, memar, biznesmen.



**“Anamın atası məktəb direktoru olub, həm də Laçında körpülər, bağlar salıb. Laçındakı ilk musiqi məktəbi babamın təşəbbüsü ilə açılıb. Laçını görməsəm də, uşaqlıqdan oranın əhvalatları ilə böyümüşəm deyə ev-ev, küçə-küçə tanıyıram kəndimizi. Gözüyumulu getsəm, hər yeri taparam.”**



**Seyidməhəmməd Məmmədzadə tarixçidir, AMEA Tarix İnstitutunun doktorantıdır, Bakı Dövlət Universitetində dərs deyir.**

## *Seyidməmməd Məmmədzadə*

Seyidməhəmməd ulu babasının adını daşıyır. Ana babası Məşədi Salah ağa Şamda, Nəcəfdə 18 il dini təhsil alıb. Din üləması olduğuna görə Şura hökuməti dövründə repressiyaya uğrayıb. Seyidməhəmməd elmi araşdırmaları bir yerə yığıb yeni dərslik tərtib etmək niyyətindədir. Tarixçinin tədqiqatları əsasən Azərbaycanın Cümhuriyyət dönəmini əhatə edir. Cümhuriyyətin xarici siyasəti barədə bugünədək məlum olmayan faktları üzə çıxarır...

Ailə Laçında yaşayanda Seyidməhəmmədin atası müəllim, anası kənd xəstəxanasında baş həkim işləyirmiş. 30 illik fasilədən sonra rayona qayıdanda anası yenə həkimlik edəcək, atası isə arıçılıqla məşğul olmaq niyyətindədir. Böyük qayıdış ərəfəsində laçınlı ailə sabahını belə görür — hamı işdə-gücdə, hamı salamat. Doğma yurda elə bu əhvalla qayıdarlar.




“Harada həyat varsa, orada mütləq öncə yol olmalıdır.”

“Müharibə başlayanda səfərbərlik üzrə ən çox qeydiyyatdan keçən Laçın gəncləri olub.”




Pirəküşküldə böyüyən Toğrul uşaqlıqdan o qədər hərbçi, hərbi texnika görüb ki, döyüşə özünü daim hazır bilib. Peşəkar tankçıdır.

“Bakıda böyüyüb yaşasaq da, öz yurdumuz, öz torpağımız bizə daha əzizdir. O yerlərin havası da, suyu da dərmandır, can dərmanı .”



Gündüz Laçının Zağalı kəndində doğulub, amma nə kəndi görüb, nə el-obanı. Erməni qəsbkarları kəndi işğal edəndə onun bir yaşı olub. Atasının evdən çıxara bildiyi elə öz ailəsi olub - 4 uşaqlı ailə didərgin düşüb...
Sentyabrın 27-si müharibə başlayanda Gündüz cəbhəyə könüllü yazılıb. Oktyabrın 14-də cəbhəyə yollanıb. Gündüz Baxşeyişzadə Qubadlı və Cəbrayıl döyüşlərində iştirak edib. İftixarla söyləyir ki, müharibəyə getmək üçün ən çox müraciət edənlər laçınlı gənclər olub. Deyir, Çingiz Mustafayevin Xocalı faciəsində lentə aldığı qırmızı paltarlı uşağın kadrları ömür boyu gözünün önündə olub.
"Biz bilirdik ki, o uşağın qisasını almalıyıq. Qarabağda savaşıb həlak olan bütün şəhidlərin qisası da bizim boynumuzdaydı. Bizi belə yüksək ideallarla böyütmüşdülər".
Müharibə başlayana qədər Gündüz yol çəkib. Laçına qayıdanda da, çox güman, elə bacardığı işi görəcək.

Toğrul 1993-cü ildə doğulub – Vətənin işğalından bir il sonra. Laçının özündə yaşayan Umudovların ilk övladıdır.
Dədə-baba yurdlarından köçkün düşəndə ayrı-ayrı rayonlarda yaşayandan sonra Bakı yaxınlığında, Pirəküşküldə yerləşiblər, hərbi hissənin lap yanında. Deyir, uşaqlıqdan o qədər hərbçi, hərbi texnika görüb ki, döyüşə özünü daim hazır bilib. Peşəkar tankçıdır.
2020-ci ildə general Polad Həşimov şəhid olanda Toğrul Umudov yüzlərlə azərbaycanlı kimi orduya getmək üçün müraciət edib. Bir də 2020-ci ilin sentyabrında özü də, balaca qardaşı da könüllü müraciət edərək cəbhəyə getmək istədiklərini bildiriblər. Toğrulu aparıblar, qardaşını yox. Düz 17 gün sonra Xocavənddə yaralanıb. Əvvəl kəllə-beyin travması, sonra da qəlpə yarası alıb.
"Mən vuruşanda da, yaralananda da bir məqsədlə yaşamışam. Məqsəd həmişə dədə-baba yurdumuza qayıtmaq olub ".




Ailənin Laçında iki evi olub, heç biri salamat qalmayıb. Bakıda yaşadığı müddətdə bir çox peşələrdə özünü sınayan Xəyyam, neçə ildir ki, öz ətriyyat mağazasını açıb. Xəyyamın təhsil aldığı 1 saylı Laçın məktəbinin son məzunları bu günə qədər əlaqəni kəsmirlər. WhatsApp qrupu yaradıb bir-birindən xəbər tuturlar. *“Dostlarımız arasında artıq Laçında işləyənlər - təndirxana, bərbərxana açanlar, tikintidə çalışanlar var. Hamısı daha yaxşı şəraitdən, gəlirdən imtina edib, doğma şəhərə qayıdıblar...*
”Xəyyamın böyük qızının nişanlısı da laçınlıdır. Qismət olsa, toyu Laçında eləmək hər iki ailənin arzusudur...




*Ayişə və Fatimə Mahmudova bacıları*

*Ayişə tələbə, Fatimə şagirddir.*

Böyük bacı kimya mühəndisliyi üzrə bakalavr təhsili alıb. Hazırda Bakı Ali Neft Məktəbinin magistridir. Neft sahəsini öyrənsə də, deyir, Laçın zəngin torpaqdır, orada qızıl yataqları da var. Düşünür ki, mühəndis kimi bu sahədə də faydalı ola bilər. Ayişə nişanlıdır. Laçınlıların böyük əksəriyyəti kimi o da kənar adama yox, elə öz həmyerlisinə könül verib. Nişanlısı da perspektivli peşə sahibidir. Maliyyəçidir. Bankda çalışır. Sabah ailə qurub Laçına yollansalar, gənc müətəxəssis kimi ikisi də işlə təmin olunacaq.

Ayişəylə Fatimə Laçında tanınan nəslin qızlarıdır. Babaları vaxtilə Laçında avtobazanın müdiri olub. Ataları ətir ticarətilə məşğuldur, arada özü də ətir hazırlayır. Ata hazırladığı ətirlərdən birinə kiçik qızının şərəfinə “Fatimə” adı verib. Böyük qızın adına hələ ki, ətir hazırlamayıb. Kim bilir, o ətiri icad etmək üçün bəlkə də Laçının güllü-çiçəkli meşələrinə, dağlarına getmək, o təbiətin bəxş etdiyi nemətlərdən istifadə etmək lazımmış. Bəs evin kiçik qızının xəyallarında Laçın necə görünür? Fatimə riyaziyyat müəllimi olmaq istəyir. Deyir ki, riyaziyyat bütün emlərin açarıdır. Bu açara sahib olan, bu elmə vaqif olan hər kəs üçün həyatda bütün qapılar açıq olacaq.




**“1994-cü il aprelin 21-də Lələtəpə əməliyyatında iştirak etdim. O ağır döyüşdən 7 şəhid verdik, 5 yaralıdan biri mən idim.”**

Vətən müharibəsi başlayanda hər kəs kimi Babək Aslanov da müvafiq qurumlara orduda olmaq istədiyini bildirib. Müharibənin ilk günündən son gününə kimi Laçın, Şuşa, Cəbrayıl komissarlıqlarından ön cəbhəyə gedən əsgərləri Babək müəllimin şirkətinə məxsus avtobuslar daşıyıb — təmənnasız.

Yalnız bu deyil. Bir gün Veteranlar Birliyinin sədri kimi Aslanovdan xəbər alırlar ki, ermənilərin işğal etdiyi yerləri tanıyan, oralarda xidmət edən, indi də formada olan keçmiş döyüşçülər varmı? “Döyüşə getmək istəyən 80-ə yaxın adam vardı. 30 nəfəri qəbul elədilər. Getdik Cəbrayıla sarı, oradan Laçın tərəfə. O istiqamətlərdə biz keçmişdə də olmuşduq, indi də vuruşduq.”

Döyüşə gedən həmin dəstə üzvlərinin əksəriyyəti müxtəlif medallarla təltif olunub.

**Babək Aslanov ixtisasca politoloqdur. Vaxtilə dərs də deyib, məmur da olub. Bu gün sahibkarlıqla məşğuldur, “Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri” İctimai Birliyinin Laçın rayon şöbəsinin sədridir...**






“Qardaşım Mənsur Şirinov Almaniyada işləyirdi. Ermənilərin təcavüzündən xəbər tutan kimi işini-gücünü atıb vətənə gəldi. Gəldi ki, şəhidlik məqamına ucalsın.”

Şirin Şirinov ustadır, təmir işini gözəl bacarır. Düşünür ki, dirçəliş mərhələsinə qədəm qoyacaq doğma şəhərində lazımlı və faydalı olacaq.

Şirin Şirinovu 1992-ci ilin yanvarında əsgər aparıblar. Ailə Laçını tərk edəndə də əsgərlikdə olub, qardaşı şəhid olanda da. Mənsurla eyni istiqamətdə vuruşsalar da, görüşə bilməyiblər. Bir də Bakıdakı Şəhidlər Xiyabanında ziyarət edib qardaşını. Vətən müharibəsi başlayanda qərar verib ki, mütləq döyüşlərdə iştirak edib Mənsurun intiqamını almalıdır. Babək Aslanovun təşəbbüsü ilə yaradılan 30 nəfərlik kəşfiyyatçı-bələdçi dəstəsinin tərkibində cəbhəyə yollanıb. Hərbi uğurlarına görə medallarla təltif olunub.






> “Evimiz durmur. Torpağımız bizdən bir az küskündür. Qurub yaradarıq, tikib düzəldərik, laləzara çevirərik - barışar.”

“1892-ci Ildə babam Hümbət kişi erməni fitnəsinin qurbanı olub. Erməni hücumundan müdafiə olunduğuna görə onu Sibirə sürgün ediblər. 12 il sürgündə qalıb. O hadisədən 100 il sonra, 1992-ci ildə bizim ocağımız yenə dağıldı - bu dəfə yurdsuz-yuvasız, vətənsiz qalmağa məhkum olduq.”
Vətən müharibəsi başlayanda keçmiş döyüşçülər kənarda qala bilmirlər.

**Əli Hümbətov Laçında yaradılan ilk hərbi hissənin ilk əsgəri olub — “Azərbaycan marşı”nı oxuyan ilk əsgər. Üç il döyüşlərdə iştirak edib, yaralanıb, ikinci qrup Qarabağ qazisidir. Laçın rayon veteranlar cəmiyyətinin sədr müavinidir.**

Düşünüblər ki, o yerləri yaxşı tanıdıqlarına görə hərbdə faydalı olacaqlar. Fikirlərini kağıza köçürüb yazılı formada müraciət edirlər. 30 nəfərlik qrupla müharibəyə yollanırlar. Döyüşlər zamanı 30 nəfərdən 8-i yaralanır. Qubadlı, Cəbrayıl, Laçın əməliyyatlarında iştirak etdiklərinə görə medallarla təltif olunurlar. Qələbədən danışanda gözləri parıldayır. 30 ilə yaxın həsrətini çəkdiyi yurda dönəcəyi günü səbirsizliklə gözləyir. Üç övladı, bir nəvəsi var Əli bəyin. Hər biri doğma yurda köçmək istəyir.



## “Laçının gələcəyi üçün çalışmaq şəhid övladlarına şərəfdir...”



*İntizar Zülfüqarova*
*Rəfiqə Şahverdiyeva*

Anasının fikrincə, qızı Rəfiqə universal qabiliyyətə malikdir - qocaq, savadlı, bir neçə diplomu var. Uşaq poliklinikasında tibb bacısı çalışan Rəfiqə xanım kosmetologiya, fizioterapiya sahəsində də əsl peşəkardır. İntizar xanım əmtəəşünasdır. Laçında mağaza müdiri, sonra Avtovağzalda şöbə müdiri çalışıb. Bakıya 36 yaşında ikən köçüb, dövlətin verdiyi mağazada işləməklə bərabər, bir illik Tibb Texnikumunu da bitirib ki, övladları heç bir şeydən korluq çəkməsinlər. İntizar xanımın həyat yoldaşını, qaynını laçınlılar yaxşı tanıyırlar.

1994-cü ildə İsrafil Şahverdiyev Kəlbəcərdə şəhid olub. 1995-ci ildə isə İntizar xanımın həyat yoldaşı Rəsul Şahverdiyev aldığı qəlpə yarası və ürək çatışmazlığından həlak olub.

Hazırda 51, 60, 210 nömrəli marşrut xətləri üzrə hərəkət edən avtobusların qarajında sürücülərin tibbi müayinəsinə cavabdeh olan İntizar xanım Laçına qayıtdıqdan sonra yenə mağazada çalışmağı düşünür: *“18 yaşımdan işləyirəm, evdə oturmağa alışmamışam...”*

**“İki qardaş – Rəsul və İsrafil Şahverdiyevlər polis işçisi idilər. I Qarabağ müharibəsi başlanan kimi – 1988-ci ildən ən qaynar nöqtələrdə savaşdılar. Salatın Əsgərovanın qatillərini cəzalandıran da onlar oldular...” Ermənilər “Şahverdinin oğlanları”nın başına böyük məbləğdə pul ayırmışdılar. Laçının kəndləri, Kəlbəcər uğrunda döyüşlərdə iki qardaş alay komandirləri kimi çiyin-çiyinə döyüşüblər. Onları “qoşa qartal” adlandırırmışlar...**





Əminə xanım  kimya müəllimməsidir, 25 ildir məktəbdə dərs deyir. 2021 –ci ildə “Əməkdar müəllim”  adına layiq görülüb.

Əminə Kərəmli

**Zaur Tağıyev ehtiyatda olan zabitdir. Bakı Biznez və Kooperasiya kollecində çalışır. Ailənin xoşbəxtliyinə  kölgə salan təkcə Laçın həsrəti idi, o da bitdi...**

“-Salam, uşaqlar!
-Sabahın xeyir!
-Belə hər vaxtınız xeyir!
-Ay sabahımız xeyrə qənşər açılsın!
-Ramiz haradadı, səsi çıxmır?
-Onun adının qabağına “qaib” yazaq...”
Bu votsap qrupundakı çat hər günə belə xoş ovqatlı yazışmayla başlayır. Çatdakılar hamısı sinif yoldaşlarıdır. Laçında eyni məktəbin eyni sinfində oxuyublar. Düz 60 il əvvəl.
Əminə Kərəmlinin anası da oradadır — Şəfiqə xala, Yaxşı xala, Ramiz dayı da. Əminə xanım deyir, yaşı 70-ə çatan laçınlılar o çata daxil olanda elə bil təzədən məktəb illərinə qayıdırlar. Dönə-dönə danışdıqları xatirələr yenə dilə gəlir. Bir  həvəslə söhbət edirlər, gəl görəsən!..




**Əminə xanımın atası hər axşam Laçın haqda, vətən haqda şeirlər oxuyarmış. “Rəhmətlik kişi hansı toyda, yığıncaqda olsaydı, mütləq söz alıb şeirlə məclisi canlandırardı, deyərdi ki,  “bu şeirləri oxumasaq, vətən, torpaq unudular...” Nur içində uyu, Kərəm baba! Sən vətən həsrətilə dünyadan köçsən də, bu gün elin-oban, camaatın dədə-baba yurduna, vətənə qayıdır.  Ruhun şad olsun!**

Zaur Tağıyevlə  Əminə xanımın taleləri oxşar olub . Təxminən eyni yaşda məcburi köçkünlük həyatı yaşayıblar.  23  il əvvəl ailə qurublar, 2 övlad böyüdürlər. Fidanə və Fərid. Əminə xanım nəinki öz övladlarına, məktəbdə şagirdlərinə də vətənpərvərlik aşılayıb, Laçın sevgisini öləziməyə qoymayıb.




**Ailədə hər kəs fərqli sənət sahibidir. Yolçəkən, musiqi müəllimləsi, elektrik, sürücü, psixoloq... "Laçında bu peşələrin hər birinə ehtiyac olacaq" deyə düşünürlər.**

Mahal müəllim təhsilini Rusiyada alıb, Voloqda Politexnik İnstitutunu bitirsə də, daha çox ictimai vəzifələrdə çalışıb. 1990-cı ildə o vaxtkı dövlət müşaviri Abbas Abbasovun dəvəti ilə Laçında fəaliyyətə başlayan Qaçqınlar Komitəsinin 20 saylı SMD-nə rəis təyin edilib. Sonrası müharibə...

1995-ci ildə Qarabağdan tərxis olunan veteran Mahal müəllim həyat yoldaşı, solfecio müəllimləsi Gültəkin xanımla birlikdə köçkün balaları üçün musiqi məktəbinin açılmasına nail olub.




Gültəkin xanım övladlarına nağıl əvəzinə Laçın haqqında xatirələrini danışıb. "Ağbirçəklərin təndirə yapdıqları çörəyin ətri aləmə yayılardı, yoldan keçənə, qonum-qonşuya pay verdikcə, süfrələr daha da bərəkətlənərdi. O mehribançılığı unutmaqmı olar?.."

Tikintidə, binaların havalandırılması sahəsində təcrübə qazanmış Anar hazırda sürücüdür, "Laçında təcili tibbi yardım maşınında işləmək istəyirəm" deyir. Qardaşı Azər isə elektrikdir, ixtisası üzrə təkmilləşmə kurslarına qatılmağa həvəslidir. Ailənin böyük qızı Lalə Sumqayıt reabilitasiya mərkəzində psixoloqdur. Lalənin oğlu İshak Türkiyə vətəndaşıdır. Nənəsinin tez-tez işlətdiyi "heç vədə Laçını unutma, bala" kəlməsini təkrarlamağa vərdiş edib.




## *Səddam Hüseynli*

*Videoqraf, ssenarist*

Səddam Azərbaycan Texniki Universitetində kompüter mühəndisliyi ixtisası üzrə təhsil alıb. Bakı Nəqliyyat Agentliyində operator-texnikdir. Təhsili və işi texniki sahələrə aid olsa da, yaradıcılığa meylli gəncdir.

Səddam Hüseynli instaqram paylaşımlarına xeyli müsbət rəy alır. Şəhidlər, tarixi hadisələr və müxtəlif bayramlarla bağlı hazırladığı videoların ideyasını, Səddamın təqdimat tərzini, diksiyasını izləyiciləri çox bəyənirlər. Laçında kiçik bir studiya fəaliyyət göstərərsə, Səddam daha böyük uğur qazanacaq. Bununla belə, Laçının perspektivi üçün yeni ixtisaslara yiyələnmək lazımsa, cani-dildən razılıq verəcək: *“Laçın üçün nə gərəksə, edərəm, təki faydalı olum.”*




**“Şəhid ailəsində böyümüşdüm. Bilirdim ki, şəhidimizin qanını yerdə qoya bilmərəm. Qarabağı azad etmək mənim borcum idi”.**

Birinci Qarabağ müharibəsində şəhid olan Hafiz Şükürovun qardaşı oğludur Qaçay. O zaman atası Seymur da döyüşlərdə iştirak edib. Uşaqlıqdan vətənpərvər ruhda böyüyən Qaçay, sözsüz ki, müharibəyə biganə qala bilməzdi. Elə də olur. Hərbi komissarlığa könüllü yollanır. Şəhid ailəsindən olduğu üçün onu qeydiyyata almırlar. Deyirlər Qaçayın döyüşə yollanması üçün atasının razılığı olmalıdır. Qaçay ailəliydi, 2 yaşında bir qız övladı vardı. Onları da Allaha əmanət edib döyüşə yollanmaq idi istəyi. Atasına özü zəng edir. Deyir ki, öldü var, döndü yoxdur. Atası da Qaçayın qərarına qarşı çıxmayıb, rəsmi razılıq verir. Döyüşlərin birində ağır yaralanır. Aldığı kəllə-beyin travmasından sonra nitqini itirir, düz 6 ay 22 gün danışa bilmir. Danışığı tədricən bərpa olunsa da, ünsiyyət problemi tam həll olunmayıb. Müharibədən sonra Qaçay öz işini bərpa etmək istəyir, xalça dükanını işə salır, 2-3 ay dükana gedib-gəlsə də, işləyə bilmir. Səhhəti imkan vermir. Zatən hərbi həkim komissiyasının imzaladığı rəsmi sənədə görə də onun işləməsinə icazə yoxdur. Qaçay ikinci qrup əlildir. Qaçayın valideynlərinin səhhətində problem olmasına baxmayaraq, doğma vətənə, Laçına qayıtmaq istəyirlər. “Öz yurdumuzda hər çətinliyin öhdəsindən gələ biləcəyik”.





*Adil Şükürov*

"Üç qızım var, tələbədirlər, hər üçü müəllim olacaq - biologiya, ingilis dili və kimya müəllimi. Üçünə də ehtiyac var. Mən özüm də işləyəcəm. Laçında futbol klubu yaradacağam."

**Adil 1985-ci ildən taleyini futbola bağlayıb, "Neftçi" futbol klubunun yetirməsidir. Azərbaycanın bir çox klublarında oynayan Adil İranın "Traktor Sazi" komandasında da oynayıb. 2008-ci ildən etibarən ayrı-ayrı komandalarda baş məşqçi olub. Günü bu gün də Naxçıvan Futbol Akademiyasının direktorudur.**

"Bəzən deyirlər ki, guya biz azərbaycanlılar komanda ola bilmirik. Böş sözdür. Məgər müharibədə komanda olaraq birləşmədikmi? Könüllülüklə bağlı çağırışdan dərhal sonra minlərlə insan bir gecədə ayağa qalxdı. Komanda deyil, bəs nədir?.."
Adil Şükürovun fikrincə, azərbaycanlıların guya komanda oyunlarına meylli olmaması ilə bağlı stereotip düşüncəni qırmaq lazımdır. Ömrünü futbola həsr edən adam elə belə düşünməlidir. Şükürovlar ailəsi Qarabağ savaşında iki igidini itirib. 1992-ci ildə Pənah həlak olub, bir il sonra Teymur. Beş qardaşın beşi də döyüşüb, ikisi şəhid olub. Şəhidlər Xiyabanındakı o iki məzar bu nəslin davamçıları üçün and yerinə çevrilib. Adil birinci Qarabağ savaşında şəhid olan Teymur Şükürovun oğludur.



> “Laçınlılar qoçaq camaatdır. Biz öz yurdumuzu cənnətə döndərəcəyik... Bu saniyə aparan olsa, qaça-qaça gedərəm. O qədər arzulamışam ki Laçına qayıtmağı...”

*Xatirə Quliyeva*

**Xatirə xanım köçkünlüyün hər sınağına dözən, ən çətin günlərdə zəhmətə qatlaşan insandır. Firma, mağaza, restoran qurub idarə edə bilən bacarıqlı qadındır.**

Sumqayıtda doğulub. Atasının səhhətilə bağlı Laçına köçüblər. 6-cı sinfə qədər Laçının özündə, sonra isə Hoçaz kəndində yaşayıb. Orta təhsillidir. 2000-ci ildə Rusiyanın Kazan şəhərinə köçüb. 14 il orada yaşayıb. Xatirə xanım xatırlayır ki, erməni vəhşiliyi başlayanda onlar Laçında idilər. Yoldaşıyla bir həftəlik Bakıya gəlirlər. Altı yaşlı oğlu kənddə qalır, dörd yaşlı qızını isə özüylə gətirir. İşlərini bitirib rayona qayıdanda yolda görürlər, millət Laçından çıxır. Yoldaşı Xatirəni də, uşağı da təkrar Bakıya qaytarır, özü yollanır Laçına.
Beləcə, köçkünlük həyatı başlayır - didərgin, dərbədər, yarıac, yarıtox. Elə olur, iki otaqlı evdə quru döşəmədəcə 22 nəfər sıralanıb yatır. Köçkünlüyün maddi sıxıntılarıyla yanaşı, mənəvi əzabları da olur. Məğrur dağ adamları başqalarının himayəsinə sığınmağı qəbul edə bilmirlər. 2000-ci ildə ailə Rusiyaya üz tutur, Kazanda məskunlaşırlar. O gedən düz 14 il yaşayırlar qürbətdə. Ailənin ehtiyaclarının yükünü Xatirə xanım öz üzərinə götürür. Biş-düş etməyə başlayır. Bir il sonra öz gücünə bir firma, ardınca mağazalar, restoran açır, şirniyyat da bişirir. Özünü oda-közə vurur. Uşaqları böyüdüb oxutdurur. Evin qızı ailə qurandan sonra Rusiyada qala bilmirlər. Köçüb Bakıya qayıdırlar. Xatirə xanım Bakıda da özünə düzən qurub. Çörək sobası alıb, gündə 30-40 çörək bişirib restoranlara verir. Belə xanım Laçında da boş durmayacaq. Bacarıqlı adam hər yerdə baş çıxaracaq, o da ola 30 il həsrətini çəkdiyi vətəndə.




1992-ci il mayın 16-da Əhmədkənddən çıxanda Həmidin 22 yaşı olub. Laçının kəndindən Qubadlıya kimi pay-piyada gedib, mal-heyvan sürüsünü aparırmışlar. O vaxt kənddə bircə özü qalmışdı. Atası vəfat etmişdi. Bir qardaşı vardı, o da əsgərlikdəydi. Anasını da kənddən çıxartmışdı. Tək idi.Oradan Bərdəyə yollanır Həmid. Qardaşı əsgərlikdən gələndə oturub səhərəcən söhbət eləyirlər, səhər Həmid qardaşının formasını geyinib Kəlbəcərə yollanır. Laçın polis batalyonuna qoşulur. 1993-cü ildən 2000-ci ilə qədər Füzulidə, Cocuq Mərcanlı kəndinin postunda xidmət edir. 2002-ci ildə batalyon ləğv olunanda Həmid pensiyaya çıxır. Bir də 18 il sonra silaha sarılmaq istəyir. Vətən müharibəsi başlayanda könüllülər sırasına yazılır. Bir qrup laçınlını cəbhəyə aparırlar. İkinci qrupu da döyüşə hazırlayanda xəbər gəlir ki, müharibə qurtardı... İndi Həmid Pirallahıda yaşayır. Bir oğlu Almaniyada oxuyur, biri hələ məktəblidir. Laçın azad olunandan sonra iki dəfə doğma yerlərin ziyarətinə gedib. Yurda qayıdandan sonra nə iş görəcəyini də təxminən müəyyən edib.



**Bəhruz bankda xəzinədar işləyir. “Peşəmə uyğun iş tapılmasa, təsərrüfatın istənilən sahəsində baş çıxardaram. İstənilən peşənin ikicə aylıq kursunu keçən olsa, öyrənib hamıdan yaxşı işləyərəm. Bu qayıdışı uşaqlıqdan gözləmişik.”**

## “Kiçik qızım Laçın işğaldan azad olan gündən bəri oyuncaqlarını bir qutuya yığıb, öz evimizə köçəcəyimiz günü gözləyir”.

*Bəhruz Abduləliyev*

Əslən Laçının Böyük Seyidlər kəndindəndirlər. Bəhruz Laçından çıxanda cəmi 7 yaşı vardı. Atası 1991-ci ildə vəfat etmişdi. Anası iki oğlunu da götürüb Bakıya üz tutur. Qardaşlar uşaqlıqdan zəhmətə alışırlar. Xırda alverlə analarına kömək edirlər. Çətin keçir uşaqlıq illəri, birini tapanda birini tapmırlar...
On beş ilə yaxındır ki, Bəhruzun “əli pulla oynayır”, bankda xəzinədar işləyir. Danışır ki, Laçından çıxanda uşaq olsa da, oraların hər gözəlliyi yadındadır. Bir də ki, atasının məzarı qalıb Laçında. Mütləq gedib dağılmış ata ocağını bərpa eləmək, orada yaşamaq istəyir.

Ailəlidir Bəhruz, xanımı da mühasibdir. Abdullayevlərin iki övladı var. Əli də, Xədicə də məktəbdə oxuyurlar. Elə uşaqlar da kəndə dönmək həvəsindədirlər.
Bəhruz Aprel döyüşlərində də, Vətən müharibəsində də hərbi komissarlığa könüllü müraciət edib. Amma yaşına görə, heç birində xahişini nəzərə almayıblar. Müharibəyə getmək qismət olmayıb. İndi yenidən qurulan Laçına bacardığı qədər xidmət etməyə hazırdır, öyrənmə qabiliyyətinə, iş qurma potensialına çox arxayındır.
Bəhruzun anası xərçəng xəstəsidir. Qadın deyir, “vətənə qayıtsam, bütün ağrım-acım, dərdim-bezarım da çıxıb gedəcək.”



Azər Rəsulov

Azər Rəsulov peşəkar sığortaçıdır. Geri döndükdə öz ixtsası üzrə də çalışa bilər, başqa işlə də məşğul ola bilər. Təki qayıtsın. Təki öz yurdunda yaşasın.

*"Elə bir laçınlı yoxdur ki, gündə ən azı bir dəfə Laçın sözünü işlətməsin. Heç Laçını görməyən uşaqlarımız da deyirlər ki, laçınlıdırlar".*

Azər Laçından 16 yaşında ikən çıxıb. Birinci Qarabağ müharibəsində qardaşına, əmisi oğluna qoşulub qərargaha gedib, vuruşmaq istədiyini söyləyib. Deyiblər, yaşın çatmır, olmaz. Vətən müharibəsi başlayanda 44 yaşı varmış. Bu dəfə də müraciət edib. 30 həmyerlisi ilə birlikdə kəşfiyyatçı-bələdçi kimi müharibədə iştirak edib.

**"Laçından çıxanda elə bilirdik, 3-4 günlük çıxırıq. Bilmirdik ki, bir də 30 ildən sonra qayıda biləcəyik".**

Azər uzun illər sığortaçı kimi fəaliyyət göstərib. Bəs indi Laçına hansı arzularla qayıdır? Deyir, Laçınla bağlı bütün arzuları artıq həyata keçib. Arzusu Laçın uğrunda döyüşüb torpağı azad etmək imiş. Bu da baş tutub. İndi qalıb quruculuq işləri...






"Qızımın 6-7 yaşı vardı. Bir gün dedi:
- Ana, bizim 3 evimiz var.
- Hansı evi deyirsən?
- Biri bizim evimiz, biri dədəgilin evi, biri də Laçındakı ev.
Məəttəl qaldım. Onda hələ Laçın alınmamışdı".



> “İş yoldaşım Laçına getmişdi, mənə birdəfəlik qabda torpaq, bir də çoxlu çiçək gətirdi, çəmən çiçəyi. Çiçəklər yolda ağzıbağlı selofan torbada büzüşüb solmuşdu. Onları güldana qoydum, üzərinə su çilədim. Səhərəcən qulluq elədim, dirildilər. Bax, həmin Laçın çiçəklərindən, Laçın torpağından boyunbağılar düzəltdim. Fikrimcə, ən dəyərli, ən qiymətli işim o boyunbağılardır.”

Samirə xanım ibtidai sinif müəllimidir. Laçından çıxanda 10 yaşındaymış, indi geri dönməyə hazırlaşır, 10 yaşlı qızı Zeynəblə birgə. Ailədə üç bacı, bir qardaş olublar. Qardaşı maşın qəzasında həlak olanda sarsılıb, başını qatmaq, dərddən qorunmaq üçün tətbiqi sənətlə məşğul olmağa başlayıb. 2014-cü ildə xovlu tikməni öyrənib. Qardaşının rəsmini yaratmaq imiş istəyi. Sənətin sirlərinə yiyələndikcə daha da dərinlərə gedib, muncuqlarla, təbii daşlarla işləməyə başlayıb. Qızı Zeynəb isə gözəl rəsmlər çəkir. Bu gün Samirə xanımın iki işi var – həm məktəbdə dərs deyir, həm də əl işlərilə sərgilərə gedir. Bu həm də onun kiçik biznesidir. Düşünür ki, elə Laçında da bu işlərlə məşğul olacaq. Müəllimliklə yanaşı sənətkarlığı da inkişaf etdirəcək.






**Bir ömür tədrislə məşğul olan ailə həm də nümunəvi övladlar tərbiyə edib. Sahib müəllimlə Rəfiqə xanımın oğlanlarının ikisi hərbçidir. Ailə Laçına qayıdacaq ki, sökülmüş evi bərpa etsinlər. Ömrün ahıl çağında rahat, xoşbəxt, firavan yaşasınlar. Bunun üçün hər şeyləri var – imkanları, bacarıqları, arzuları. Və ən əsası – Laçın var, azad Laçın!**



> “Unutqan olmayın, aman günüdür,
> Tarixə boylanıb ayağa qalxın!
> 18 may yurdun işğal günüdür,
> Həmin gün bayrağı Laçına taxın!”

Rəfiqə xanım Laçından çıxanda, köçkünlüyün, qaçqınlığın acısını yaşayanda bu sətirləri kağıza köçürüb. Dil-ədəbiyyat müəllimidir. Uzun illər minlərlə uşağa doğma dili, ədəbiyyatı sevdirib. Rəfiqə xanım adi müəllim deyil. Yaşadıqlarını, gördüklərini qələmə alan ədəbiyyat adamıdır. İki hissəli roman yazıb çap etdirib. Romanın əsas qəhrəmanını axtarmaq üçün çox uzağa da getməyib. Deyir, əsərin qəhrəmanı Həsən elə həyat yoldaşı Sahib müəllimin eynən özüdür. İndi romanın üçüncü hissəsi üzərində işləyir ağbirçək ana. Yaşananlar, tarixə dönən günlər unudulmasın deyə.



Ailə başçısı Sahib Rüstəmov bir ömür tədris işinə xidmət edib. 88-ci ildə Laçında avtomobil sürücülüyü məktəbi yaradıb. Torpaqlar işğal olunanda, köçkünlük düşəndə həmin məktəb də Ağcabədiyə köçürülüb. Sonra ailə Bakıya köç edib. Burada da peşə məktəbinə, daha sonra mütəxəssis hazırlığı mərkəzinə rəhbərlik edib.



"Bakıda o ümidlə yaşadıq ki, tezliklə qayıdarıq. Gün günə calandı, aylar, illər bir-birini əvəz etdi... 30 il ötdü...

Arzumuzdur - övladılarımız, nəvələrimiz toyumuzda şənlənsinlər."

"Əhd eləmişik, Laçına köçəndən sonra ata evimizin arxasında yenə mağar quracağıq. Adətən, "nəvələrin toyunda oynayasınız" deyərlər. Bizim hekayədə isə tərsinədir – övladlarımız, nəvələrimiz toyumuzda rəqs edəcəklər. 30 il əvvəlin nisgilli hekayəsi şənliyə keçəcək...."




## *Quliyev Səxavət, Quliyeva Gülbəniz*

*“3 övladım, 2 nəvəm var. Oğullarımdan biri Sankt-Peterburqda həkimdir. İkinci oğlum tələbədir, hüquqşünas olacaq. Qızımızı köçürmüşük, Almaniyada yaşayır.*
*Biz 4 qardaş anamızla bərabər öz yurdumuza qayıdacağıq.”*
*“Cavandım, Rusiyadan gəldim, qonşu qızını görüb aşıq oldum. İndi bu qızı Bakıdan Laçına “qaçırıb” təzədən toy edəcəm... Həyat yoldaşım yaxşı mühasibdir, istənilən müəssisədə çalışa bilər...”*

1992- ci il, mayın 10-da Laçında iki qardaşın eyni gündə toyu olacaqdı. Dəvətnamələr paylanmış, mağar qurulmuş, bütün hazırlıqlar görülmüşdü, amma... Mağar boş qaldı, toy çalınmadı. Şuşanın işğalı xəbəri Laçına çatan kimi təcili təxliyə başlandı. İlk növbədə qadınlar rayondan çıxarıldı. Xocalıda törədilən soyqırımdan cəmi 2 ay ötürdü...” Bu illər ərzində qohum-əqraba cavanlara yığıncaq, yüngülvari bir məclis keçirmək istəsələr də, qardaşlar razı olmayıblar.

## *Quliyev Vaqif, Quliyeva Rübabə*

I Qarabağ müharibəsi başlananda Vaqif Quliyev Laçın polisinə keçərək döyüşlərə qatılıb. Hazırda özəl şirkətdə ekspeditordur. Rübabə xanım isə tibb bacısıdır, qayıdanda Laçın xəstəxanasında işinə davam edəcək.*“Qorçu Qarabəyli kəndləri arasıda Qamışın Dərəsi deyilən yerdə gölə balıq atmışdım. Gördüm balıq artır, yeri sənədləşdirdim. Bank müdiri Hilal müəllim dedi ki, gəl, ssuda götür; tələsmədim, fikirləşdim, toyu eləyək, mayın axırı işə başlayaram... Müharibə hamının arzularını yarımçıq qoydu. Amma indinin özündə, bu yaşda sıfırdan başlayıb nəsə yaratmağa bacarığım çatar...”*






Emin Həsənov Laçın rayonunun Laçın kəndində doğulub. Qardaşı Ağasəlim elm adamıdır. Həsənovların ataları Şəmil kişi sovet dönəmində "Qaragöl" adlı pavilyon işlədirmiş. Emin də atasının yoluyla gedib. Gənc yaşlarından ticarətlə məşğul olub. Laçına qayıdanda da elə bildiyi işi görəcək. O yerdə ki, insan məskən salacaq, alış-veriş yerlərinin olması vacibdir. Ticarəti və haqq-hesab məsələlərini yaxşı bilən Emin ötən il şeir yazmağa başlayıb. İlk şeirini şəhidlərə yazıb. Əsasən vətənpərvərlik mövzusundakı şeirlərini bir yerə toplayıb kitab çap etdirməkdir istəyi. İki övladına – Turanla Ülkərə uşaqlıqdan o qədər vətəndən danışıb ki, hər ikisi Laçına qayıdacaqları günü həyəcanla gözləyirlər. Emin deyir, atasının səhhətində bir az problemlər var. Amma əmindir ki, atası Laçına qayıtsa, yüz faiz sağalacaq.




Bu sözü deyəndə 12 yaşlı Ülkərin gözlərinə kədər çökür. Balaca qızcığaz fikrə gedir, amma körpə simasında kədərin sevinclə əvəzlənməsi elə tez baş verir ki!.. Ülkər valideynlərindən eşidib ki, Laçının meşələri çox gözəldir. Hər yerdə çaylar, bulaqlar var. Qar yağanda oralar ağappaq olur. Hə, yaşından asılı olaraq, vətən hərəni bir gözəlliyilə cəlb edir. Kimi ora xatirələrini yenidən dirçəltmək, kimi də yeni xəyallar qurmaq üçün tələsir. Amma hamı tələsir. Hamı gözləyir. Laçın çağırır axı...



# Qəzənfər Hüseynov

Laçının tanınmış ağsaqqalı Qəzənfər Hüseynov dünya görmüş adamdır, hadisələrə, həyata özünün fəlsəfi münasibəti var. Sumqayıtda Qəzənfər müəllimi çox adam tanıyır – təkcə real həyatda yox, virtualda da minlərlə dostu var. Günü bu gün də sosial şəbəkələrdə gündəmin nəbzini tutur, dünyada baş verənlərə laqeyd qalmır. Nə yazırsa, nə paylaşırsa, məsələyə mütləq azərbaycançılıq mövqeyindən yanaşır.“Vətən müharibəsi başlayanda 73 yaşım vardı. Zəngilanlı dostumla hərbi komissarlığa müraciət etdik. Dedik ki, silah tuta bilirik, relyef də tanışdır. “Yaşınız keçib, – dedilər və bizi qəbul etmədilər...” Qəzənfər müəllimin üç övladı var. Laçına kitabxanaçı qızıyla bərabər dönməyi düşünür. “Laçın mənim üçün həyatın mənasıdı” – deyən Qəzənfər Hüseynov bildirir ki, onun üçün evin, əmlakın heç bir dəyəri yoxdur. “Laçında kahalar var. Yoldaşımla mən gedib o kahalarda da yaşaya bilərik, vətənə qayıdaq, qalan hər şey düzələr”.



**“Hər yerdə, hər kənddə, hər qəsəbədə kitaba, elmə, biliyə ehtiyac var. Demək, qızım da millətə bir fayda verəcək-bilik və bacarığını yerlilərilə bölüşəcək...”**

**“Adamlar Allah olmaq istəyəndə başlayır müharibələr...”**




**Qubad İbrahimov Laçındakı binaların çoxunun əsasını qoyub. Uzun illər tikintidə çalışıb, idarə müdiri, bir müddət də Laçının baş memarı olub.**

Birinci Qarabağ müharibəsi başlayanda göstəriş verib ki, fəhlələr səngər qazsınlar. Laçının müdafiəsi üçün öncə qorunmaq lazım gəlirdi. Ona görə ən təhlükəli yerlərdə səngərlər qazıblar, postlar qurublar.

1992-ci il mayın 13-də Qubad İbrahimov ailəsini də götürüb Laçından çıxmalı olur. Yataqxanalar. Şəraitsizlik. Beton döşəmələr. O çətin günləri xatırlayanda söyləyir ki, vəziyyəti düzəldən Ulu Öndərin bircə sözü oldu. Heydər Əliyev dedi ki, köçkünləri işlə, evlə təmin etmək lazımdır. Azərbaycan xalqı da bir milyon qaçqına qucaq açdı.

“Məndən “torpağına qayıdırsanmı?” soruşanda xətrimə dəyir. Necə qayıtmamaq olar ki...”

İşğalçının onun evini dağıdıb yerində kilsə tikməsi Qubad müəllimi lap qəzəbləndirib. Laçına qayıdandan sonra bu məsələnin beynəlxalq məhkəmələrdə araşdırılmasına nail olacağını söyləyir.



Ayaq izlərimlə bəzəyim səni,
Yoldayam, hardasa yol gözləyən var.
Niyə qarış-qarış gəzməyim səni,
Bir ovuc torpağa "Vətən" deyən var...

Yenə qucağını açmısan, Vətən,
Yenə səfərim var, yola çıxıram.
Nə vaxtdır qoynunda - yollardayam mən,
Gəzib ürəyinə yol axtarıram....

**Jurnalist Günay Malikqızı Bakıda doğulub, boya-başa çatıb, amma deyir ki, atasının şeirlərindən tanıdığı Laçının, orada keçən qayğısız uşaqlıq illərinin bir ömür xiffətini çəkib. Atasının əvəzinə də darıxıb Laçın üçün...**

## *Günay Malikqızı*

Günay xanımın atası şair Malik Fərrux Laçında doğulub. Universitetin jurnalistika fakültəsini bitirəndən sonra Azərbaycan Dövlət Televiziyasında çalışıb. Malik Fərrux 100-ə yaxın mahnının söz müəllifidir. Mikayıl Vəkilov, Mobil Babayev, Cəmil Əmirov, Faiq Sücəddinov, Eldar Mansurov, Rəşid Nəsiboğlu kimi bəstəkarlarla birgə çalışıb.
Malik Fərrux düşmənin Laçını ələ keçriməsindən çox sarsılıb. Özü Bakıda yaşasa da, dədə-baba yurdunun viran qalması, qohum-əqrəbasının köçkün düşməsi ona ağır dərd olub. Nə acı ki, söz adamı 1998-ci ildə vəfat edir. Laçının azad olunmasını görmək ona qismət olmur. Günay xanım doğma yurda həm də atasının əvəzinə tamaşa edəcək. Günay deyir ki, Malik Fərrux cismən Laçına qayıda bilməsə də misraları, Laçına həsr etdiyi şeirləri ilə Böyük Qayıdışın bir parçası olacaq.




**Heydər Əliyev Fondunda çalışır. Müharibə vaxtı cəbhəboyu qərargaha rəhbərlik edən Namiq İbrahimlinin fikrincə, indiki mərhələdə ən əsas məsələ məskunlaşmadır.**

*"8-10 yaşım olardı, atamla TV-də futbola baxırdıq. SSRİ ilə Türkiyə oynayırdı. Atam soruşdu ki, "sən hansı komandaya azarkeşlik edirsən?" Dedim: "SSRİ-yə". Dedi: "Mən istəyirəm Türkiyə udsun. Axı biz türkük..." Bu söz mənim düşüncəmi kökündən dəyişdi.*

Namiq İbrahimli Laçından çıxanda 15 yaşı vardı. Bir günün içində ev-eşiyini itirsə də, ailə məhv olmur. Namiq oxuyur və yaxşı oxuyur. Hüquqşünas olur. Dövlət idarələrində çalışıb təcrübə toplayır. Namiq müəllim təklif edir ki, layihələr işlənsin, hərə öz büdcəsinə uyğun layihə seçsin, gedib evini tiksin. Bu işdə hamı birləşib iş görməlidir. Hər şeyi dövlətin üzərinə atmaq olmaz. *"Biz səngərdə yaşayan adamlarıq. Laçın isə arzusunda olduğumuz, həsrətini çəkdiyimiz vətəndir. Orada yaşayıb yurdumuzu cənnətə çevirməliyik."*




**Laçın rayonu texniki rabitə stansiyasında baş mühəndis kimi çalışan Bəşir kişini tanımayan yoxdu. “Teleqraf, televizor, radio, telefonla bağlı nə iş varsa, mənə aid idi...”**

Bəşir kişi Laçında hər evdə çörək kəsib. Kimin televizoru xarab oldu, telefonu işləmədi, ya radio dalğaları qarışdımı, dərhal o yada düşərmiş. “Politexnik”i bitirib radioəlaqə, radioyayım ixtisasına yiyələnmiş əsl peşəkar-Bəşir kişi universal usta idi. Məcburi köçkün kimi Bakıda məskunlaşandan sonra da, əlbəttə, bekar qalmayacaqdı. “Əvvəl neft şirkətinə işə düzəldim, pensiyaya çıxana qədər isə Azəriqazın rabitəsində çalışdım.” Pensiyada olsa da, Bəşir kişinin əli işdən soyumur. Tələbəsi də var - Qəhrəmanov Baxşeyiş. O indi ustadır. Laçına qayıdanda bir emalatxana açıb, yenə camaata xidmət edəcək. Dörd övladı, 11 nəvəsi var. Bütün ailə Laçına dönmək istəyir. Baməzə, zarafatcıl adamdır Bəşir kişi, üzündən təbəssüm çəkilmir. Məzəli söhbətləri, zarafatları ilə hamının könlünü açır. *“Görün bir ən balaca qız nəvəm nə deyir? “Baba, Laçında toyuq saxlayacam, yumurta 45 qəpikdi e...”*





**Onların ilk venetkası indi çəkildi - Laçın işğaldan azad ediləndən sonra... Bu illər ərzində ayrılmadılar. Xeyirdə, şərdə bir-birini arayıb-axtardılar. Məktəb illərinin xatirələri onları gənc saxladı. Artıq hər birinin öz həyatı, öz peşəsi, fərqli talelər i var. Bircə arzuları eynidir: yenə o kövrək illərə, gözəl xatirələrə - Laçına qayıtmaq!**



# Laçın 2 saylı orta məktəbinin sonuncu buraxılışı

**“Məzun” adı almalarına bir neçə gün qalmış Laçın işğal edildi. Şəhərə yağan raket zərbələri onların “son zəng”i oldu...**





“Xəstəxana Laçına köçəndə mən öz işimdən ayrılmayacağam. Yoldaşım elektrikdir, yaxşı ustadır, indidən maraqlanır, Laçına qayıtmağa tələsir. ”

-Haçansa Laçına qayıtmağı düşünürsünüzmü?
-Haçansa yox, biz elə indi getməyə hazırlaşırıq. Valideynlərim, övladlarım, hamı...

*Soldan sağa*: Səlimova Gülnarə, İmanlı Arzu

*Gülnarə Səlimova* – BDU-nun filologiya fakültəsini bitirib. Bir müddət müəllimə işləyib. Hazırda Asərsu ASC-də kadrlar üzrə mütəxəssisdir.

*Fərid Abbasbəyli* – Azərsu ASC-də planlaşdırma və layihələndirmə departamentinin aparıcı mühəndisidir.

*Sevinc İmanlı* – Laçın rayon Mərkəzi xəstəxanasında tibb bacısıdır.

*Əli Abdullayev* – tikinti materiallarının texnologiyası və elektrotexnika təchizatı mütəxəssisi. Sumqayıt su-kanal idarəsində nəzarətçidir.



*Soldan sağa*: Əliyev Azər, Abbaszadə Fərid, Abdullayev Əli

“Biz Laçında artıq işimizi görmüşük. Noyabrın 15-dən oradayıq. Ordumuz torpaqları azad etdikcə, onların arxasınca irəliləyirdik. Noyabrın 7-dən Hadrut, Cəbrayıl, Füzuli, Şuşa, Kəlbəcər, Ağdam... Sonra Laçına gəldik...”

“Yaxın vaxtlarda Laçından daha gözəl rayon tapmaq elə bilirəm ki, çətin olacaq...”


Soldan sağa: Şirinova Gülnarə, Safura Abbasova

*Gülnarə Şirinova* – 25 ildir Laçın məktəbində pedaqoq psixoloqdur.

**“Özüm uşaq ikən ağır psixoloji travma ilə çıxdığım üçün bu peşəni seçdim. Dəfələrlə şəhər məktəblərindən iş dəvəti alsam da, qəbul etmədim, elə Laçın məktəbində qaldım.”**


Soldan sağa: Hüseynzadə Hafiz, Aynur Əhmədova

**“Sinif yoldaşım həyat yoldaşımdır...**

*Aynur Əhmədova* – Həkim-pediatrdır. Hazırda marketinq şirkətində çalışsa da, Laçına dönəndən sonra yenə həkimliyə qayıdacaq.


Soldan sağa: Sevinc İmanlı, Arzu İmanlı

*Arzu İmanlı* – Sumqayıtda, Laçın rayonu Aşağı Cicimli məktəbində təlim-tərbiyə işləri üzrə müavin, tarix müəllimәsidir.

**“Tam səmimi deyirəm: Elə bil həyatımız orada donub. Qayıdandan sonra yenidən başlayacayıq. Uşaqlarımıza da elə tərbiyə vermişik ki, “sən laçınlısan, yerin oradır...” İnanıram ki, övladlarımız arxamızda duracaq, qayıdışımız möhtəşəm olacaq...”**



*Soldan sağa*: Kərimov Hafiz, Hüseynzadə Hafiz, Həsənov Anar, Səmədov Ərəstun

**"Həyatımızı qaldığımız yerdən davam edəcəyik..."**

**"Sinif yoldaşlarının hamısı mebeli Ərəstundan alır, gözəl əl qabiliyyəti, fitri istedadı var..."**

**-Təsərrüfatla məşğul olmaq üçün sizə hansı şərait, nə lazımdır?**
**-Bunun üçün mənə yalnız Laçın lazımdır...**

*Ərəstun Səmədov* – mebel ustasıdır, şəxsi sexində hazırladığı mebellərə özü dizayn verir.

*Anar Həsənov* – orta məktəbi bitirəndən sonra, icarədar kimi xırda ticarətlə məşğuldur. Laçında sahibkar olaraq fəaliyyətini genişləndirəcəyini planlaşdırıb.

*Hafiz Kərimov* – iqtisadçı təhsili alıb. Uzun illər İşıq idarəsində çalışıb. Laçında heyvandarlıqla məşğul olacağını deyir. Artıq 200-300 baş mal-qara saxlama təcrübəsi var. Əslində Hafiz müəllimi bacarıqlı podratçı kimi də tanıyırlar. Atası Kərimov Ərəstun Laçının tikinti idarəsinin rəisi olub, qəsəbələrin qurulmasında birbaşa iştirak edib. Anası isə sinfin sevimli kimya müəlliməsi idi.



*Hafiz Hüseynzadə* – Elm və Təhsil Nazirliyində Şərqi Zəngəzur üzrə sektor müdiridir. Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarının məktəblərinin əsaslı tikintisi və cari təmiri bilavasitə bu şöbənin fəaliyyət sahəsidir. Yəni Hafizin Laçına qayıdandan sonra işi çoxdur...

Hafizin dediyinə görə, evlərinə ilk qayıdanda bərbad halda idi.

> **“Gətirdiyim yorğan-döşəklə atama bir balaca yer düzəldib, özüm səhərə qədər Laçının küçələrində gəzdim...”**



*Azər Əliyev* – iki universitet bitirib. BDU-da hüquqşünas və Qərb Universitetində işgüzar inzibatçılıq təhsili alıb. Özü tikdiyi 2 marketdə sahibkarlıq fəaliyyəti ilə məşğuldur.

> **“Laçınla bağlı əlli milyonluq layihəm var. Bizim Minkənddəki “Abad xeyir” dərəsində şəfalı su mənbələrinin üzərində su zavodu qurmaq istəyirik. Ötən il öz maşınımla ingilis mütəxəssisləri Minkəndə apardım, bir həftə ərzində suların analiz-sintez prosesi getdi, nümunələr konteynerlərdə BP şirkətinin Bakıdakı laboratoriyasına aparıldı. Bir ay sonra suların keyfiyyətini təsdiq edən xüsusi İSO9001 sertifikatı aldım. Bu mənə Minkənd suyunu bütün dünyaya ixrac etmək hüququ verir. Hazırda layihə şəhərsalma və arxitektura idarəsinə təqdim edilib.”**



Ailədə altı uşaqdan dördü Bakıda müəllim təhsili alıb. Ailə başçısı Rəhim Abbasov İcra hakimiyyətində təbliğat-təşviqat şöbəsinin müdiri olub, Maarif şöbəsinə rəhbərlik edib. *"Laçından köçəndən cəmi bir il sonra atam dünyasını dəyişdi. Barışa bilmədi, çox fikir elədi, xəstəlik tapdı."*

Valideynləri doğma yurdun nisgili ilə dünyadan köçsələr də, Rəhim müəllimin 4 övladı Laçına qayıtmağa hazırlaşır. *"Dost-tanışın çəkib göndərdikləri videolarda görmüşəm ki, atamgildə gözəl təmir gedir, indi evimiz əvvəlkindən də gözəldir..."*

Safura müəllimə əmindir ki, Laçın yenə Qarabağın mədəniyyət mərkəzlərindən birinə çevriləcək. O, Həkəri çayı ətrafında salınacaq turizm mərkəzinin layihəsini görüb, çox bəyəndiyini deyir. *"Biz uşaq ikən Həkərinin sahilində çox gəzmişik, hər kəsin xatirəsində o yerlərlə bağlı bir hekayə var. Çox şükür ki, sevimli şagirdlərim üçün Laçının yeni, daha xoşbəxt hekayələri yaranacaq..."*

## Safura Abbasova

Safura müəllimə işğal altında qalmış rayonlarda qeydiyyatda olan uşaqlara yazıb-oxumağı öyrədir. 29 saylı tam orta məktəbdə ibtidai siniflərə dərs verir.



**"Laçında həmişə təhsilə xüsusi diqqət veriblər, ələlxüsus da qızlar savadlı olmalı idi. Təhsil olan yerdə mədəniyyət hökmən inkişaf edir."**



**Laçında Uşaq-gənclər İdman məktəbinin direktoru, yunan-roma güləşi üzrə peşəkar məşqçi.**

> **“Müasir idman-sağlamlıq kompleksləri yaradılarsa, əminəm ki, laçınlılar Azərbaycan bayrağını uca zirvələrə qaldıracaqlar. Bu sahədə çalışmağı, təcrübəmi paylaşmağı mən də özümə şərəf bilərəm...”**

## Elbrus Cabbarov

1987-ci ildə Elbrus Cabbarov Laçın Maarif Şöbəsinin müdiri Nəcəfov Tofiqlə birgə uşaq və gənclər üçün idman məktəbi açmağa nail olublar. Peşəkar məşqçi kimi, Elbrus müəllim direktor olduğu məktəbdə yaxşı idmançılar yetişdirib. Onun fikrincə, idman sağlamlığın keşikçisi, eyni zamanda gəncliyin tərbiyəsində böyük rol oynayan amildir – nizam-intizama dəvət edir, döyüşçülər, cəngavərlər yetişdirir. Elbrus müəllimin üç övladından ikisi qızdır. Hər ikisi ailəli - biri müəllimə, o biri həkim-bioloqdur. Oğlu aqronomluq üzrə bakalavrdır, torpaqşünaslığın magistr səviyyəsində mütəxəssisdir. Hazırda hərbi xidmətdədir. *“Övladlarımın üçü də Laçın üçün faydalı işlər görəcəklər...”* Elbrus müəllimin yoldaşı uzun müddət Laçın əmanət bankında çalışıb. Ailədə hər kəs öz ixtisası üzrə peşəkar olsa da, lazım gələrsə, Laçının gələcəyi naminə yeni ixtisasa yiyələnməyə də hazırdırlar. Məsələn, Elbrus müəllim təmir-tikinti sahəsində iş təcrübəsi olduğunu söyləyir: *“Laçının möhtəşəm quruculuğunda mənim də əməyim olsun istərdim...”*




**Ərşad Hüseynov hüquqşünasdır. Nəqliyyat və yol təhlükəsizliyi üzrə ölkədə tanınan mütəxəssislərdəndir. Hüquqa aid bir neçə kitab müəllifidir.**

“Yeddi qardaş idik.  Dördümüz döyüşürdük. 9 ay döyüşlərdə iştirak edəndən sonra məni göndərdilər Bakıya ki, get dərsini oxu.”
Ərşad Hüseynov o zaman tələbə imiş. 1992-ci ilin fevralından könüllü cəbhəyə yollanıb. Danışır ki, Hüseynov qardaşlarından başqa, bir də Məmiyev qardaşları varmış dəstədə — Asəf və Kamal. Döyüşlərin birində ikisi də şəhid olur. O hadisədən sonra komandirlər bu dörd qardaşı da eyni vaxtda döyüşə göndərməyiblər. Biri yaralansa, ya şəhid olsa, digəri sağ qalsın deyə.
Vətən müharibəssində də cəbhəyə yardım aparanlar sırasında olub. Laçın azad olunandan sonra doğma yurdun ziyarətinə gedib. Görüb ki, evlərindən əsər—əlamət yoxdur, yerini ağac basıb. Amma həyətlərində iri bir qoz ağacı varmış, o ağacı görən kimi tanıyıb. “Ağacı qucaqlayıb halallıq istədim”, - deyir.
Ərşad Hüseynovun 3 övladı var. Ikisi tələbədir. 2020-də Laçına gedəndə oğlunu özü ilə aparıb. O zaman 6-cı sinifdə oxuyan oğlan Laçına qədəm qoyan ilk azərbaycanlı balası olub.




> “İki il əvvəl kəndimizə getmişdim. Bizim məşhur bulağımız vardı, suyundan gətirdim. Atam içdi. Bir həftə sonra rəhmətə getdi.”

**Aydın Cəfərov tikinti işi ilə məşğuldur. Füzulidə beşmərtəbəli bina tikirlər. Düşünür ki, bundan gözəl qismət ola bilməz-işğaldan azad olunmuş yurdunu 30 il sonra qurub yaradasan!..**

Aydın müəllimin atası Qaytaran Cəfərov 94 yaşında Bakıda vəfat edib. Anası Qəşəng xanımın isə 84 yaşı var. Oğulun yeganə təskinliyi budur ki, 94 yaşlı atası Laçının azad olunduğunu bildi, o dünyaya vətən xiffəti ilə getmədi. Aydın müəllim uzun illər Bakı Dövlət Universitetində, Azərbaycan Tibb Universitetində, Sumqayıt Universitetində dərs deyib. Birinci Qarabağ müharibəsi başlayanda da universitetdə işləyirmiş. Qardaşı Kamal Cəfərov isə 1988-ci ildən döyüşlərdə imiş. İlk könüllü dəstəni yaradanlardan biri olub Kamal Cəfərov. Aydın müəllim xatırlayır ki, 1992-ci ildə Laçın işğal olunandan sonra yaşlıları, qadınları, uşaqları çıxarıblar, cavanlar özünümüdafiə dəstələrində birləşib. O zaman gənc Aydın könüllü olaraq cəbhəyə yollanır. 2 il savaşır. 500 döyüşçüdən ibarət qanuni batalyon formalaşdırırlar. Vətən müharibəsində də cəbhəyə gedib. Bu dəfə cəbhəyə yardım aparıblar. Yenicə azad olunmuş kəndlərinə gizlin yollarla gedib çıxıb. Aydın müəllim Bakı qeydiyyatındadır. Amma deyir ki, bu gün də imkan olsa, qayıdar.





# Şamama Qoşunəliyeva



**Deyir, Laçına qayıdanda ən böyük külfət onun külfəti olacaq. Maşallah, ümumi sayları 50 nəfərdən çoxdur.**

7 övlad, üstəlik 24 nəvə və 20 nəticə. Şamama ananın dünyadakı qazancı, sərvəti bu rəqəmlərlə ölçülür.
İki ildən sonra Şamama xanımın 80 yaşı tamam olacaq. Amma özü göyçək, zəkası yerində, canı qıvraq, ruhu cavandır.
Altı qız, bir oğul böyüdüb Şamama ana. Çətin olub, əziyyət çəkib, amma indi də uşaqların hamısı ananın nazını çəkir. Odur ki, 80-i heç yaxınına da buraxmır .
Laçından çıxanda yalnız bir az ərzaq götürə biliblər – bir kisə qənd, bir kisə şəkər tozu, bir kisə buğda, yağ, bir də yorğan-döşək. Vəssalam.





> “Laçında lap adi poçtalyon işləməyə də razıyam.”

**Nəriman Zeynallı**

**Bakıya köçkün kimi gələndə mətbuat yayımı ilə məşğul olmağa başlayır, yəni olur ali savadlı poçtalyon. Yoldaşı müəllimdir. Üç övladı var. Üçü də xaricdə təhsil alır. Qızları Türkiyədə, oğlu İtaliyada oxuyur.**

Demə, Nəriman Zeynallının Laçındakı ilk işi də elə poçtalyonluq olub. Orta məktəbi bitirən il ali məktəbə daxil ola bilməyib. O zamanın da qaydasına görə, ali məktəbə qəbul olunmayan abituriyent mütləq işləməliymiş ki, növbəti il qəbul üçün sənəd təqdim edə bilsin. Qayıdır Laçına. Atasının dostu poçt müdiri imiş. Təklif edir ki, Nəriman gəlsin poçtalyonluq etsin, həm bircə saatlıq işdir - ali məktəbə hazırlaşmağa imkanı olar, həm də qəzetdən-jurnaldan oxuyub bir az da maariflənər. Əvvəl utansa da, işlədikcə öyrəşir yeni işə. Xatırlayır ki, Laçında İslam adlı bir fotoqraf yaşayırdı. Əslən şuşalı olan İslam mütaliəni sevdiyi üçün az qala bütün jurnallara abunə yazılmışdı.
Dövlət Universitetinin coğrafiya fakültəsini bitirəndən sonra Nəriman Zeynallı Azərmətbuat yayımında böyük təlimatçı işləyir. Öz həyətlərində ev də tikirmiş özünə, başa çatdırmaq qismət olmur.
Laçına qayıtmaq söhbəti gündəmə gələndən Nəriman Zeynallı yeni arzular, xəyallar qurur. Düşünür ki, hər yaşayış məntəqəsi kimi Laçında da mətbuatın yayımı ilə məşğul qurum olmalıdır, bir-iki qəzet köşkü açılmalıdır yəqin. İnternet axı çap mətbuatını əvəz edə bilmir. Nəriman müəllimin niyyəti bu işi Laçında bərpa etməkdir. İlk poçtalyonluğu da özü etmək istəyir.




**Novruz Əzimov 13-14 yaşından futbol oynayıb. 80-ci illərdə “Neftçi” komandasının üzvü olub. Peşəkar idmana keçmək üçün İdman və Bədən Tərbiyəsi İnstitutuna daxil olub.**

> **“Müharibə vaxtı Çeçenistandaydım, Qroznıdakı “Terek” klubunda çalışırdım. Xocalı faciəsi baş verəndə rəhbərliyə müraciət etdim ki, burada qala bilmirəm, mən Azərbaycana getməliyəm.”**

Novruz Laçının Alqulu kəndində doğulsa da, məcburi köçkün deyil. Atası əvvəl neftçi olub, sonra sovxozda çalışıb. Mehdiabad qəsəbəsində yaşayıblar. Əzimovlar halal ruzi ilə 8 övlad böyüdüblər. Futbolun qaydasına görə, illik qazancının tən yarısını Novruza avans kimi ödəyirmişlər. Klubun rəhbərliyinə deyir ki, mənə verdiyiniz pulu qaytarmaq istəyirəm. Ödənişi geri almır klub, “get, – deyirlər, – ölkənə işğalçılar hücum edib, sənin pula ehtiyacın olacaq.” Həmin pula iki minomyot alır. “Kamaz”a yükləyib gedir düz Laçına. Özünümüdafiə dəstəsinə könüllü yazılır. Mayda Laçın işğal olunur. İgidlər Kəlbəcər yoluyla kəndlərinə qayıdıb düz oktyabra qədər döyüşürlər. Müharibədən sonra Novruz ayrı-ayrı klublarda futbol məşqçisi işləyib. Hazırda İdman İnstitutunun müəllimidir.

Novruz Əzimovun övladlarının üçü də tələbədir. Amma qardaşı Rudin də, özü də vətənə qayıtmaq istəyirlər. Novruz Laçında futbol klubu yaratmaq istəyir. Deyir ki, Laçının özündə stadion tikməyə yer çoxdur. “Gedib orada komanda yaradaram. Nə qədər gücüm, enerjim var – işləyərəm.”



> “Uzun illər ali məktəblərdə Azərbaycan tarixini tədris etmişəm. Əminliklə deyirəm ki, bizim xalqın tarixində belə bir qayıdış olmayıb.”

Ələmdar müəllim ali məktəb müəllimidir. Doktoranturanı Fransada keçib. Fransa milli kitabxanasının üzvüdür. Doktorluq işini Avropada müdafiə edib.

*Ələmdar Şahverdiyev*

Ələmdar Şahverdiyev hələ tələbə ikən – 1989-cu ildə Laçın xeyriyyə cəmiyyətini təsis edib. İki tərəfdən erməni təzyiqi altında qalan Laçın camaatı üçün xeyriyyə yığıb, özü də paylayıb. Laçına qayıtmaq barədə məktuba ilk imza atanlardan biri o olub. Xanımı ali təhsilli iqtisadçı-mühəndisdir.

Ələmdar müəllimin iki qızı var, ikisi də ailəlidir. Bir qızının yoldaşı polis işçisidir, özü ASAN xidmətdə çalışır. Onlar mütləq qayıtmaq istəyirlər.

Tarixçi alim mütləq vətənə dönəcəyini deyir: “Elə bir məqamdır ki, indi hamımız tarix yazırıq. Vətəni dirçəltmək savab işdir. Bu işdən kənarda qala bilmərəm.”




“Laçınlıyam. Laçını heç görməmişəm. Amma Laçına mütləq köçəcəyəm.”

Günelin 25 yaşı var. Bakı Dövlət Universitetinin filologiyasını bitirib. Məktəbdə çalışır.

Günel Hüseynova gözəl rəsm çəkir, tətbiqi sənətlə də məşğul olur. Laçına köçəndə mütləq bir emalatxana açmaq, bacarıqlarını uşaqlara öyrətmək, yaratmaq və sənəti yaşatmaq niyyətindədir. İnanır ki, ardınca gələnlər çox olacaq.

Valideynləri kənd adamlarıdır, amma qollu-budaqlı, çevrəli—əhatəlidirlər.
“Yeddi əmi, bir bibi, yeddi xala, dörd dayı. Hər birinin də həyat yoldaşları, övladları. Bütün ailə bir yerə yığışanda bir toyun adamı oluruq”, - deyən Günel böyük ailəsindən sevgiylə danışır. Deyir, elə ki bir yerə toplaşdılar, ancaq Laçından danışırlar. Gör neçə ildi oralardan uzaq düşüblər, hələ də bir nömrəli mövzu Laçındır.
Günelin atası vaxtilə polisdə çalışıb, Qarabağ müharibəsi veteranıdır. Əmiləri də döyüşüblər, bir əmisi qazidir.
İndi bu böyük ailədə hər kəs Laçına böyük qayıdışı gözləyir. Günel özü məktəbdə dərs deyəcək təbii.



## “Laçına qayıdacağım günə qurban demişəm...”

Akif müəllim ömrün səkkizinci onilliyindədir. Ali təhsilli mühəndis olub, inşaatçı mühəndis. Laçının ən böyük obyektlərinin tikintisində onun zəhməti var. O illəri elə gözəl xatırlayır ki. Laçındakı son iş yeri yol idarəsi olub. Rayon mərkəzindən ucqar kəndlərə yollar çəkirmişlər. Ta mənfur düşmən gəlib torpağımızı zəbt edənə qədər. Dava başlayanda hamı kimi o da vuruşub. I Qarabağ müharibəsinin veteranı olduğunu iftixarla söyləyir.

Akif müəllimin üç övladı var – bir qızı, iki oğlu. Laçından çıxanda oğlu Asəfin 8 yaşı olub. Bakıda böyüyüb təhsil alıb. İndi də dövlət qulluğunda çalışır. Asəfin Laçın haqqında arzuları çoxdur, orada yaşayıb , orada yaradacaqlar. Təki sağlıq olsun. Laçın azad olunandan sonra Akif müəllim özü o diyara gedə bilməsə də, oğlu gedib. Deyir ki, evimiz bərpa olunur. Bu sözü deyəndə gözləri parıldayır ağsaqqalın. “Heç kəsdən heç nə istəmirik, - deyir, - bircə təhlükəsizliyimiz təmin olunsun, qayıdaq öz yurdumuza”.






> “Kanal çəkib göl yaratmışdıq, balığı da buraxmışdıq. Yaxın kəndlərdə yaşayan ermənilər necə böyük işlər gördüyümü izləyirdilər. 92-ci ilin mayında evdən çıxanda 4 qumbaranı stəkanın içinə qoydum ki, qapıya əlini uzadan peşman olsun. İyunun 12-də 83 polis əməkdaşı ilə Murovdan keçib şəhərə qayıtdıq. 6 nəfərlə kəşfiyyata çıxıb gördüm ki, evimin girəcəyi uçulub. Deməli ki, qumbara işləyibmiş...”

1981-1995-ci illərdə polis sistemində xidmətdə olub. Məcbiri köçkünlərin ilk mütəşəkkil icmasını yaratdıqdan sonra beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq çərçivəsində onlarla uğurlu layihəyə imza atıb. Sovet milisindən Azərbaycanın ərazi bütövlüyü uğrunda savaşan milli polisə qədər... İsmayıl müəllimin ömür yolu ölkə üçün taleyüklü tarixi hadisələrdən keçib. 1988-1994-cü illərdə ön cəbhədə olub – Laçın, Kəlbəcər, Murov, Cəbrayıl, Şuşa... Və nəhayət, Füzuli rayonunda, böyük itkilər və böyük uğurlarla yadda qalan, hərb tarixinə qızıl hərflərlə yazılmış “Horadiz əməliyyatı”nın təşkilatçılarından və iştirakçılarındandır. Əfsanəvi “Qara polkovnik” Fətulla Hüseynovla silah yoldaşı olub.

**İsmayıl müəllimin fikrincə, ən böyük sərvəti Laçına təbiət özü bəxş edib. Ağlı olan qazanar, qazandırar. “Çaşır turşusu xərçəngin dərmanıdır. İtburnu doşabı min bir dərdin əlacıdır...”**

“Coliseum” şirkəti ilə Ağ Şəhər layihəsində, “Simmetrico” italyan şirkəti ilə Şuşa məscidi layihəsində çalışanların sırasında olmuşam. İnsan resurslarının idarə olunması sahəsində təcrübəm var. Nabranda, Kürdəmirdə, Ucarda icmaların formalaşdırılmasında iştirak etmişəm. Amma Laçına xidmət mənim üşün ən böyük iş, ən böyük sevincdir.”
Ailənin vaxtilə Laçında “Dalğa” kooperativi olub. S. Vurğun adına sovxozun ərazisində İsmayıl müəllim ona aid 12. 7 hektar torpaq sahəsində balıqçılıq təsərrüfatı yaradıb.




**“Tarixən insanların axını kənddən şəhərə olub – təhsil, iş-güc arxasınca gediblər. Bu dəfə tam əksinə olacaq-şəhərdən kəndə yollanacaq insanlar-tarixi ədaləti bərpa etmək üçün.”**

Mahir Abbaszadə Laçını 1992-ci ilin mayında tərk edib. Oxuduğu 10-cu sinif Laçın məktəbinin son buraxılışı olur. Sonra çox ağır günlər başlanır. Ailə Sumqayıta pənah aparır. 41 nömrəli məhəllədəki yataqxananın 313-cü otağında 7 nəfər təxminən 10 il yaşayırlar - ata-ana və 5 uşaq.

Həmin il ali məktəblərə qəbulda ilk dəfə test üsulu tətbiq olunur. Mahir Abbaszadə yüksək balla BDU-ya qəbul olunur. Xatırlayır ki, o 20 kvadratlıq bir otaqdan hər səhər üç tələbə dərsə gedirdi – o və iki bacısı. Ailənin başçısı — Laçın rayonu Biləbird kənd məktəbinin direktoru Tapdıq müəllim uşaqlarını elmə, təhsilə meylli böyüdür.

Mahir müəllim deputat fəaliyyətilə bərabər həm də 2018-ci ildən Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktorudur deyə, bu təbəqənin qayğılarından xəbərdardır. M. Abbaszadə söyləyir ki, insanların geri qayıdışı ilə bağlı heç bir sual yoxdur. Bəzi insanlar evlərin tikilməsini gözləmədən köçmək istəyirlər. Maraqlı burasıdır ki, geri qayıtmaq istəyən əhali arasında laçınlıların faiz nisbəti lap yüksəkdir.




“Təbiətin bəxş etdiyi nemətlərdən faydalana bilsək, Laçını dünyada tanıdacağıq. Buna sevgimiz, gücümüz, savadımız çatar...”




**“Laçında son şəkillərimiz bu fotokamera ilə çəkilib.”**

Gülbəniz xanım vaxtilə bağça müəllimməsi olub, indi təqaüdçüdür. Deyir ki, laçınlı xanım heç yerdə işləməsə belə, bekar qalmaz. Vaxtilə az qala  hər evdə xalça dəzgahı olub və xanımlar əl işləri ilə tanınıblar.  “Məcburi köçkünlərə dövlət Bakıda dolanışıq üçün kiçik dükanlar verirdi. Övladlarım 6-7 yaşından zəhmətə alışdılar. Elgün öz sahəsində ən yaxşı mütəxəssislərdən sayılır. Qızım Gülü indi böyük satış şəbəkələrində onlarla işçi qüvvəsini idarə etmək bacarığına addım-addım təcrübə qazanaraq yiyələnib.”
Elgün Azərbaycan Universitetinin İqtisadi Kibernetika fakültəsini bitirib. İqtisadiyyatın proqramlaşdırılması, robotlaşdırılması üzrə mütəxəssisdir.  Gömrük, maliyyə, vergi, uçot xidmətlərinin proqramlaşdırılmasını həyata keçirir, freelance çalışır. “Laçında uğurlu biznes qurmaq üçün mən ilk növbədə təbii mineral sularla  bağlı təklif verərdim.

Yeni texnologiyalarla hətta məşhur “Turşsu”nu da qablaşdırıb satışa çıxarmaq mümkündür. Laçındakı mineral və bulaq sularının tərkibində fərqli elementlər var, hərəsi bir dərdin dərmanı...” O, SSRİ dönəmində, Azərbaycanın bir hissəsini Laçındakı su ehtiyatları hesabına təmin etməklə bağlı böyük layihənin başlandığını, amma müharibə səbəbi ilə yarımçıq qaldığını xatırladır. “Bildiyim qədər, Laçında hələ aşkarlanmamış 40-a yaxın faydalı yataq var. Deməli, bu sahədə araşdırmalar aparmaq, mütəxəssislərlə birgə layihələr hazırlamaq, ideyaları dövlətə təqdim etmək vacibdir.”
S. Elgün akademik Həsən Əliyevin Laçının nadir bitki örtüyü ilə bağlı fikirlərini yada salır. Müalicəvi otların qurudulması, meşələrdəki nadir çiçəklərdən, bitkilərdən müxtəlif yağların alınması prosesinin milli təbabətə sıçrayışla irəli getmək imkanı verəcəyinə əmindir.



**“Erməni hücumları başlayanda yoldaşımı da, uşaqları da yığdım zirzəmiyə. Dedim, erməni evə yaxınlaşsa, pəncərədən qumbara atıb hamınızı öldürəcəm ki, əsir düşməyəsiz. Halallıq almışdım yoldaşımdan...”**



## *Nəslixan Sadıqov*

Bu məsələni eşidəndən sonra rayonun rəhbərləri Nəslixan Sadıqovu çağırıb deyirlər ki, bəs ailəni öldürəsi olsan, sonra özün necə yaşayarsan? Cavab verir ki, özüm də yaşamayacam. Ermənilər qırıb döyüşdə öləcəm. İş elə gətirir ki, yerliləri rayonu tərk edəndə Nəslixan Sadıqov da Laçından çıxmalı olur. Erməni hücumlarına qədər Laçında təbiətin mühafizəsi işində çalışıb. Bakıya köçəndən sonra da mühafizə edib, amma təbiəti yox, insanları.

Nəslixan Sadıqovun iki qızı, bir oğlu var. Deyir, övladları da Laçına qayıtmaq istəyirlər, amma qayıdış prosesində xanımıyla bərabər özü birinci olacaq. Facebook profilində yaşayış yerini bildirən bir qrafa var. O qrafada 30 il “Laçın” yazılıb. Alt sətirdə isə ağsaqqal şəxsi fikrini bildirib – *“Belə də qalmaz”.*
Allahın ədalətinə inanan Nəslixan müəllim düşünür ki, Laçına köçəndən sonra 10 il yaşayacaq. O zaman tikdiyi ikimərtəbə ev hələ də durur. Təmir edib içinə köçmək qalıb. “Nə qədər ki canım suludu, işləyəcəyəm, – deyir, – elə öz sahəmdə, təbiətin mühafizəsi ilə məşğul olacağam...”



❝ **Ticarətin bütün sahələrində təcrübəm var. El yığışıb Laçında məskunlaşanda da, şübhəsiz, dükanlara ehtiyac olacaq. Böyük həvəslə bildiyim işlə məşğul olacağam...”**

## *Gülü Bayramova*

*“Laçın döyüşlərindən sağ çıxan atam üç il sonra erməni terrorçularının qurbanı oldu. 1995-ci il Bakı metrosundakı terror hadisəsində 198 nəfəri xilas edən zaman özü qazdan zəhərlənib həlak oldu”* .Gülü xanım şəhid övladıdır. Atası öləndən sonra ailədə üç nəfər qalıblar – tək ana və iki övlad. Anası təhsilsiz olsa da, balalarına gün ağlaya bilib. Təbii, dövlətin qayğısı və diqqəti sayəsində. Gülü xanım danışır ki, şəhid ailəsi kimi onlara ticarətlə məşğul olmaq üçün şərait yaradılıb. Düz yaşadıqları binanın altında dükan açıblar. Ana da, balaları da həmin dükanda işləyib dolanıblar.


Şahin Məmmədov
Şahin Məmmədov Azərbaycanda və regionda uğurlu fəaliyyət göstərən, xüsusi təyinatlı obyektlərin tikintisi ilə məşğul olan, müasir texnoloji qurğular inşa edən “Qartal” firmasının təsisçisi, rəhbəridir.

**“Laçınla bağlı təklifim var, müvafiq qurumlarla danışıqlarım da olub. Düşünürəm ki, hər nəsildən bir vərəsə öz elinə- obasına dönsün. Özümüz evimizi tikək, ocağımızı yandıraq, təsərrüfatımızı quraq, hər şeyi Dövlətin öhdəsinə qoymayaq. Axı ömür-gün də gedir, yurd həsrətinə nə qədər dözəcəyik?.. ”**

Biznesdəki nailiyyətləri onun innovativ düşüncəsindən, riskə getmək bacarığından, tələbatı öncədən müəyyən etmək istedadından irəli gəlir. Şahin müəllimin ilk cəsarətli ideyası hələ sovet dönəmində ikən, SSRİ-nin Kimya Sənayesi naziri Listov tərəfindən dəstəklənib. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun ilk məzunlarından olan Şahin Məmmədovun Moskvada, neft və kimya sənayesində çalışan gənclərin iştirakı ilə keçirilmiş Ümumittifaq toplantıda verdiyi təklif o zaman böyük sensasiyaya səbəb olmuşdu. Gənc inşaatçı kimya sənayesində çalışan gənc inşaatçıların öz mənzillərinin tikintisinə birbaşa cəlb olunması haqqında proqram təklif etmiş və həmin proqram SSRİ rəhbərliyi səviyyəsində qəbul olunmuşdu. Məktəb yaşlarından bəri, hər ikisi məktəb direktoru olan valideynlərinin tərbiyəsi ilə “fəal komsomolçu” adı qazanıb Şahin müəllim. Orduda zabit kimi xidmət keçən peşəkar inşaatçı komsomol tikintisi – “Kamaz” zavodunda işə cəlb edilib. Özü də qazanıb, komsomol katibi olduğu hərbi hissənin əsgərlərinə də gen-bol ruzi yolu açıb. Sonralar da ictimai həyatın ön sıralarında addımlayıb, adı Brejnev şəhərinin fəxri kitabındadır. Bütün karyerası Lenin komsomoluna və kommunist partiyasına bağlı olduğu halda, Azərbaycanın sovet qoşunları tərəfindən işğala məruz qaldığı 90-cı ildə “partbilet”ini ilk yandıranlardan olub. O vaxtdan söz verib ki, heç bir siyasi partiyaya üzv olmayacaq. Xülyaların dağıldığı bir dövrdə ayıq ağlı ilə özünə yeni bir yol seçib. Biliyinə güvənib, təcrübəsinə arxalanıb və tam yeni istiqamətdə, uçuşa yüksəkdən başlayan “Qartal” firmasını yaradıb. İş adamı olaraq, Şahin müəllim, təbii ki, xeyriyyəçiliklə də məşğuldur, faydalı saydığı təkliflərə sponsorluq da edir. Əlalxüsus Laçına və laçınlılara xidməti özünə borc bilir.

Uğurlu biznesmen Fransada, İtaliyada və digər ölkələrdə ona şəxsən təqdim edilən beynəlxalq mükafatlar haqqında danışmağı sevmir. Deyir ki, bu günə qədər aldığı ən böyük mükafat Azərbaycan Respublikası Prezidentinin imzası ilə təqdim edilmiş Fəxri Fərmandır. Vətən Müharibəsinin 44 günü ərzində rabitə ilə bağlı xüsusi təyinatlı obyektlərin qurulmasında iştirak etdiyindən, “Qartal” Ordumuzun qəhrəmanları ilə bərabər irəliləyib. Bu səbəbdən Şahin müəllim indi də əsgərlərin sevimli qonağıdır. Deyir ki, arada olur, axşamacan viran qalmış kəndlərində gəzib-dolaşır, sonra yenə Bakıya qayıdır. Firmasında işləri qaydasına qoyan Şahin müəllim bütün səlahiyyətləri iki oğluna təhvil verib doğma torpaqda rahat ömür sürəcəyi günlərin arzusu ilə yaşayır.

“Ticarətdə, təşkilatçılıqda atalarının yanında “məktəb keçmiş” qardaşlar bu sahədə uğur qazanacaqlarına inanırlar. “Laçını turizm məkanı kimi dirçəltmək üçün bacarıqlı adamlar axtaranlara belə deyirəm: həmin o adamlar bizik!”



*Quliyev Habil*
*Quliyev Bəhruz*



Qardaşlar biznesin təşkili sahəsində bacarıqlarını ataları Əmrah kişidən əxz etdiklərini söyləyirlər. *"Atam sovet dövründə "ictimai iaşə" adlanan, qida məhsullarının istehsalı, satışı və istehlakını təşkil edən idarənin Laçın şöbəsində müdir idi. Sovet respublikalarından və xaricdən gələn bütün məhsullar əvvəl bu mərkəzə daxil olar, oradan da atamın göstərişi ilə kafelərə, koptorqlara, qastronomlara paylanardı." "İctimai iaşə" nin nəzdində laçınlıların "sosiskaxana" kimi tanıdıqları yeməkxana, kababxana və pivəxana vardı. Laçın qəsəbəsindən, 125 kənddən hansısa iş, sənəd dalınca, ya alış-verişə gələnlər hökmən atamın idarə elədiyi "obyektlərə" dönürdü. "Sosiskaxana"ya əsasən donmuş balıqlar, əla növ sosislər daxil olsa da, öz yeməklərimiz-əla xəngəl, təzə kabab, dolma, aş da verilərdi.*

**"Laçında, studiyada çəkdirdiyimiz bu fotonu ailə albomunda 30 il qoruyub saxladıq."**

## 2 fotoda 30 illik zaman var...

Bakıya köçəndən sonra Habil maliyyə-kredit texnikumuna daxil olub. Təhsil alarkən I Qarabağ müharibəsində döyüşlərə qatılıb. Cəbhədə ağır yaralanıb, II qrup Qarabağ müharibəsi əlilidir. *"Qarabağda zəfər qazanmaq oğluma qismət oldu"* - deyir Habil, - *"Laçın işğaldan azad olunan gün oğlum oradaydı, hərbi xidmətdə ikən, 2022-ci il, sentyabrın 13-dən 14-nə keçən gecə baş verən döyüşlərdə, Bala Göyçənin alınmasında şəxsən iştirak etdi..."* Bəhruz məktəbi Bakıda bitirib, Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Kafe, restoran, əyləncə biznesində iş təcrübəsi var. *"Yaxşı sərmayəm olsa, Laçında gözəl turizm mərkəzi açaram. Balıq ovu, xizəksürmə, ekstrim turlar daxil, bütün əyləncələri özündə birləşdirən, ətraf şəhərlərdən turistləri cəlb edən maraqlı bir məkan olar..."*





"Şahsuvarovlar nəslinin davamçısıyam. Cümhuriyyət dövründə, dövlət quruculuğunda fəal iştirak etmiş Şahsuvarovlardan 7 nəfər repressiya qurbanıdır..."

*Rauf Şahsuvarov*

Rauf Şahsuvarov teatrda, seriallarda yaratdığı maraqlı obrazlarla Azərbaycan tamaşaçısına yaxşı tanışdır. İncəsənət Universitetində rejissor Eldar Quliyevin dram və kino aktyoru kursunu bitirib Şuşa Dövlət Musiqili Dram teatrına təyinat alan Rauf, ilk Pantomim festivalında quruluş verdiyi tamaşanın uğurundan sonra həm də rejissor kimi tanındı. C. Cabbarlının "Aydın", Haqverdiyevin "Millət dostları" pyeslərini səhnə üçün hazırlayıb, eyni zamanda baş rolları ifa etdi. "2011-ci ildə Şuşa teatrından uzaqlaşdırıldım. Səbəbini soruşanda, "olsun ki, rəhbərliyin etimadnı doğrultmadım" –deyirəm.

Rauf Şahsuvarovun atasının əmisi Nurməhəmməd bəy Şahsuvarov Azərbaycan Xalq Cümhuriyyətinin Maarif və Dini Etiqad nazirinin müavini, daha sonra Azərbaycan SSR Xalq Maarif komissarının müavini vəzifələrində çalışıb. Nəslin məşhur nümayəndələri Mürsəl bəy Münhen Universitetinin, Surxay bəy isə Frankfurt Dağ Mədənləri İnstitutunun ilk azərbaycanlı məzunlarından idilər.

**"Laçın film prodakşn"ımız var. Onun nəzdində teatr aləminin və teatrsevənlərin yaxşı tanıdığı "Laçın" teatr studiyası fəaliyyət göstərir. Müxtəlif beynəlxalq müsabiqələrdə uğur qazanmışıq. Sənət dostum, əməkdar artist İlqar Cahangirlə bərabər "Arzular bağı" tamaşası ilə "ən yaxşı aktyor" nominasiyasında mükafatlara layiq görülmüşük...**



Surxay Şahsuvarov

Rauf Şahsuvarovun atası Laçında həkim, anası tibb bacısı olub. "Üç qardaşıq, bir bacımız var. Böyük qardaşım I qrup Qarabağ qazisidir. Mən də, balaca qardaşım da müharibə veteranıyıq."

Rauf deyir ki, onun ailəsində ad günləri qeyd edilmir. "Mənim doğum günümdə yaxın dostum, sirdaşım Şuşada şəhid oldu. Qızım fevralın 26-da, Xocalı faciəsi günü, oğlumsa dekabrın 26-da, Xankəndinin işğalı günü dünyaya gəliblər. İnşallah, Laçına qayıtdıqdan sonra ürəkdən bayram edərik..."

Raufun Laçınla bağlı arzuları çoxdur. "30 il Laçına qayıtmaq üçün yaşamışam"- söyləyir. Doğma yurda dönəndən sonra "Laçın" teatr studiyasını, film prodakşnı yaşatmağa çalışacaq.



Mürsəl bəy Şahsuvarov

“Azərbaycanın elə kəndi, qəsəbəsi yoxdur ki, orada mənim pasiyentim yaşamasın.”



*Oruc Şahsuvarov*

Ömrün doqquzuncu onilliyini şərəflə yaşayan həkim İkinci Dünya Müharibəsindən qabaq Minkənddə doğulub. Ailədə üç qardaş, bir bacı olublar. Müharibə dövrünün uşaqları kasıblıq, ehtiyac içində böyüyüblər. Orta məktəbdə oxuyarkən Oruc Şahsuvarovu orduya aparıblar. 3 il qulluq edəndən sonra geri dönüb orta məktəbi bitirir, 1959-cu ildə Tibb İnstitutuna daxil olur.

Oruc həkim köçkünlük həyatı yaşamasa da, müharibə vaxtı neçə-neçə doğmasına, yaxınına qucaq açıb, el-obaya arxa-dirək olub.

Əsl-nəsilli adamdır Oruc həkim. Danışır ki, sovetin asan-kəsən dövründə Şahsuvarlı nəslindən 7 ziyalı repressiyaya məruz qalıb. Böyük şəcərəsini iftixarla xatırlayır. Nurməmməd bəy Şahsuvarov Azərbaycanın maarif və dini etiqad naziri olub. Mürsəl bəy – Cümhuriyyətin xaricə göndərdiyi 100 tələbədən biridir. Münhen Universitetində təhsil alıb, Hamburqda professor olandan sonra gəlib Bakıya. Səməd bəy Şuşa pedaqoji məktəbinin direktoru olub. Surxay bəy Almaniyada oxuyub. Qambay bəy, Xasay bəy... Bir ocaqdan düz 7 ziyalı 37-ci ilin repressiya qurbanına çevrilib. Oruc həkim inanır ki, o işıqlı insanların da indi ruhu şaddır - dədə-baba yurdları işğaldan azad olunub deyə.

**Oruc Şahsuvarovun bir istəyi var - Laçına qayıdanda ata ocağında bir ev tikmək, nəvələrini ora aparıb yurdu qarış-qarış tanıtmaq...**

**Oruc Şahsuvarov ölkənin tanınmış cərrahlarındandır. Tibb elmləri üzrə fəlsəfə doktorudur. 1967-ci ildən bu yana 13 minə qədər əməliyyat edib. Bu isə orta hesabla ilə 250—300 əməliyyat deməkdir.**



*Nurməmməd Şahsuvarov*




Laçını 30 yaşında tərk edən Şəmsəddin Məmmədov aşpaz olub. Laçının mərkəzində, avtovağzalda bir “Gənclik” kafesi varmış, orada işləyib. Hər yeməyi bişirirmiş – xaşdan tutmuş kababa qədər. Xəngəli isə ha eləsə də, şuşalılar kimi bişirə bilmirmiş.

“Laçında nəyiniz qalıb?” soruşanda Şəmsəddin deyir, cavanlıq xatirələrinin hamısı Laçında qalıb. Laçında ev tikdiribmiş. Köçməyə macal tapmayıb. Bircə gün də yaşamayıb təzə evində. Eləcə alt-alt, üst-üst qoyub gəlib. Niyyət edibmiş ki, mayın 15-də təzə evə köşüb qonaqlıq eləsin, qohum-əqrəbanı evgördüsünə çağırsın. Qismət olmayıb. İkicə gün sonra Laçın işğal olunub. Hamı kimi köçkün düşüb. Ailəsini də götürüb gedib Biləsuvara. Biləsuvar aran, Şəmsəddingil də dağ adamları. Heç cür tab gətirə bilməyiblər istilərə. Bakıya üz tutublar.  Burada da elə öz peşəsi üzrə işləyib. Şəmsəddin bəy bu yaşacan 3 ev tikib. İkisini Laçında qoyub gəlib, Bakıda da bir ev tikib özünə. İndi vətənə dönmək arzusundadır.




> “Ailəmizdə hər kəs Vətənə qayıtmaq istəyir, oğlum Şahin üçünsə Vətənə qayıtmaq artıq həyat məqsədidir.”

**Rövşən Qarayev Azərbaycan Neft və Kimya İnstitutunu bitirəndən bəri ixtisası üzrə çalışır, neftçidir. Hazırda Azneft İstehsalat Birliyində baş mühəndisdir.**

Rövşən Qarayev Laçının Qorçu məktəbində oxuyub. Atası o zaman dövlət arıçılıq təsərrüfatında işləyirmiş. Deyirlər axı, bal tutan barmaq yalayar. Evlərində o qədər bal olurmuş ki, çayı arı şanı ilə içirmişlər. Kəndləri Laçının ən ucqar ərazisindəydi. Uşaqlar oxuyub bir yerə çıxsın deyə atası ailəsini də götürüb köçür Bakıya. 1979-cu ildən Maştağada yurd salırlar. O vaxt deyirmişlər ki, sovxoz işçilərinə ev verirlər.

Ailə başçısı da Maştağa sovxozunda fəhləlik edir ki, evlə təmin olunsun. Amma kənddəki evi də boş qoymurlar.  O zaman təyinatla kənd məktəbinə göndərilən gənc müəllimlər Qarayevlərin evində qalarmışlar...

Rövşən müəllimin iki oğlu, bir qızı, dörd nəvəsi var. Laçına qayıtmaqdan söz düşəndə oğlu Şahindən danışır. Şahin istəyir bir zamanlar babasının yarımçıq qoyduğu işi davam etdirsin, arıçılıq təsərrüfatı yaratsın, Qarayevlər ocağının əvvəlki bərəkətini qaytarsın. Şahin yol açar, şərait qurar, Rövşən müəllim də təqaüd yaşına çatana kimi işləyər, sonra ömrün qalan hissəsini kənddə, dədə-baba yurdunda yaşayar. Bu, Qarayevlər ailəsinin yaxın gələcəyə ünvanlanmış arzusudur. Deyirlər, arzunun gerçəkləşməsi üçün öncə inanmaq lazımdır. Gerisi hekayədir.

**“Düz 30 il “yaşayış yeri” qrafasına bir ünvan tapıb yaza bilmədim. Bir dəfə xatirə dəftərində ünvanımı “Nizami küçəsi 116” kimi qeyd etdim. Amma onda artıq Laçın yox idi. Bu ağrını ancaq yaşayan bilər...”**
**“Laçında 193 pilləkən çıxıb məktəbə gedərdik. Hələ saat 8-də səhər idmanına da çatardıq...”**




Xuraman xanımın sözlərinə görə, ucqar dağ rayonu sayılsa da, Laçın məktəbində linqafon kabinetləri, təcrübə otaqları – yəni müasir təhsil üçün hər şərait vardı. “Oğlumun Bakıda oxuduğu məktəbdə heç o şərait yoxdur..”
Laçınlı balaları məktəbə çox həvəslə gediblər. Sübh tezdən ev işlərini görüb, sonra 193 pilləkən qalxaraq səhər idmanına çatmaqları bir yana, hələ 9-10-cu siniflər növbətçiliyə də qayıdarmışlar...
1992-ci ildə institutu bitirən Xuraman xanım o zamanlar doğma Laçına aid hansı xəyallar qurduğunu xatırlayır, kövrəlir. Laçında hər kəsin yaxşı tanıdığı mühasib Qaçay Abbasov ailəsi üçün gözəl ev tikib, yaxşı şərait qurubmuş.

**Bacılar müəllimədilər. Xuraman xanım riyaziyyatdan, Zərifə xanım isə ədəbiyyatdan dərs deyir. Ailənin 5 qızının üçü pedaqoq, biri mühasib, biri tibb bacısıdır.**

Zərifə xanım deyir, yaz gəldimi, pəncərəni açan kimi bağçamızın çiçəkləri evimizə dolardı... İndi o ata ocağının cəmi iki divarı qalıb. Bacılar Laçında niyə hamının hökmən ikimərtəbə villa tikdirdiyinin izah edirlər: “Laçının elə bir memarlığı var ki, hər evin ikinci mərtəbəsindən tamam başqa, təkrarsız mənzərə açılır...” Ötən günlərin, itirilmiş illərin həsrəti ilə yaşasalar da, Laçında yeni həyatın çox gözəl olacağına inanırlar.



## Umud Balakişiyev

Umud Balakişiyev 1992-ci il mayın 16-sı Laçını tərk edəndə Uşaq paltarları Fabrikinin direktoru idi. Bakıda da böyük təcrübəsini paylaşmaq, çalışmaq istəyirdi.
Bu gün yaşı 90-a çatan Umud baba 40 ilə yaxın ayrı-ayrı yerlərdə rəhbər vəzifələrdə çalışıb. Laçındakı çörək kombinatının əsasını qoyub, şəhər ticarət idarəsini təşkil edib. Ağsaqqal deyir ki, həmişə zəhmətlə hörmət qazanıb, heç kəsin yanında gözükölgəli olmayıb, haram pul yeməyib, nə rüşvət alıb, nə rüşvət verib. Umud Balakişiyev deyir ki, ömür vəfa eləsə mütləq Laçına gedəcək, valideynlərinin məzarını ziyarət edəcək.

**“Dünyada yurd itirməkdən ağır dərd yoxdur. Çox şükür, dövlət elimizi-obamızı geri qaytardı.”**



**“Bizə Bakıda yardım verəndə dedim: əlim sağ, ayağım sağ, özüm də iki institut bitirmişəm. Yardım-filan istəmirəm. İş verin, işləyim.”**



> “Uzun illər yol çəkmişəm. İndi də gözüm yol çəkir. Laçına qayıdacağım günü səbirsizliklə gözləyirəm”.

> “Uyğun məkan verilsə, öz puluma sex, ya profilaktoriya aça bilərəm. Həm özüm dolanaram, həm də 5-6 nəfər üçün halal qazanc yeri olar...”

## Qanboy Həsənov

Əksər laçınlılar kimi Qanboy Həsənov da birinci Qarabağ müharibəsinin veteranıdır. 1985-ci ildən tikintidə çalışıb. Adi fəhləlikdən başlayıb, baş mühəndis olub. Elə indinin özündə də yol idarəsində işləyir, çilingərdir. Arzusu Laçına ilk qayıdanlar sırasında olmaqdır. 63 yaşlı Qanboy müəllim ömrünün qalan hissəsini öz yurdunda, öz el-obasında yaşamaq, həm də iş görmək, iş qurmaq istəyir. Bu məqsədlə müvafiq qurumlara müraciət edib ki, Laçına qayıdanda icazə versinlər şəxsi vəsaiti ilə iş qursun. Qanboy Həsənov Laçınla bağlı bütün məlumatları diqqətlə izləyir. Bir də Tanrıdan can sağlığıdı istəyir. Canı salamat olsun ki, doğma yurda qayıdanda istədiyi işi qurmağa təpəri olsun...



“Laçın azad olunanda ailəmi də götürüb o yerlərin ziyarətinə getdim. Daşları, ağacları öpə-öpə getdim.”

## Şahin Həsənov

**Şahin Həsənov Rayon texnika birliyində, ticarət idarəsində, ictimai iaşədə, rayon istehlak cəmiyyətində çalışıb - hamısında da rəhbər olub - sədr, şöbə müdiri, direktor.**

Milliyyətdən söz düşəndə deyir ki, mən kürd oğlu kürdəm, amma heç vaxt azəri türkləriylə milli zəmində problemimiz olmayıb, can deyib can eşitmişik. Yaşı 70-i keçən Şahin müəllim Laçın sakinidir. “Dünyanın düz vaxtında” Azərbaycan Xalq Təsərrüfatını bitirib.
Təyinatla elə öz rayonuna qayıdıb, həmişə rəhbər vəzifələrdə çalışıb. Müharibə vaxtı rayon üzrə özünümüdafiə batalyonunun üzvü olub. Döyüşən uşaqları ərzaqla təmin edirmiş. Eyni təkilatçılıq fəaliyyətini köçkünlük vaxtı da davam etdirib. 1992-ci ildə Ticarət Nazirliyi nəzdində yeni müəssisə açılıbmış. Həmin müəssisəni Ağcabədidə bərpa edib ki, Laçın camaatının işlə təminatında xidməti olsun.
6 övladı var, 10 nəvəsi. Qızların üçü ailəlidir. Bir oğlu neft şirkədində, biri polisdə çalışır. Bir qızı ailə qurmayıb. İş-güc olsa hamısı qayıdacaq. Ötən payız ailəvi Laçına gediblər, evlərini də tapıblar. Ağsaqqalın 95 yaşlı anası da geri qayıdacaqları günü səbirsizliklə gözləyir.



Laçına qayıdan yolda kövrək addımlarını atan yeni nəsil doğma torpaqlarda əbədi məskən salacaq. Laçın şəhəri bu kiçik əllərlə abad olacaq...


Ç I N